DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 11 (361) / NOYABR 2021-Cİ İL




İşğal dövründə həmin ərazilərdə bütün şəhər və kəndlər, o cümlədən mədəni və dini irs abidələri Ermənistan tərəfindən yerlə-yeksan edilib. Bütün müsəlmanlara qarşı təhqir və nifrət zəminində Ermənistan bizim məscidləri dağıtmış və təhqir etmiş, o cümlədən onlardan donuz və inək tövləsi kimi istifadə etmişdir. İşğal dövründə həmin ərazilərdə 67 məsciddən 65-i tamamilə dağıdılmış, digər iki məscidə isə ciddi zərər dəymişdir. Qəbiristanlıqlar da vandalizmə məruz qalmışdır.

Ərazilərin azad olunmasından dərhal sonra biz genişmiqyaslı yenidənqurma işlərinə başlamışıq ki, artıq onların ilkin nəticələri var. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, sıfırdan yeni şəhər və kəndlər salır. Bu il bu məqsədlərə dövlət büdcəsindən 1,3 milyard ABŞ dolları ayrılmışdır. 2022-ci ildə də bu işlərə ən azı eyni həcmdə vəsait ayrılacaqdır.

Mən azad olunmuş Qarabağı və Şərqi Zəngəzuru yaşıl enerji zonası elan etmişəm. Azad olunmuş ərazilərin təsdiqlənmiş potensialı 7200 meqavat günəş və 2000 meqavat külək enerjisi təşkil edir.

İqtisadi Əməkdaşlıq Təşkilatının sonuncu Zirvə Toplantısında mən həmkarlarıma Zəngəzur dəhlizi haqqında məlumat vermişdim. Bu gün deyə bilərəm ki, Zəngəzur dəhlizi reallığa çevrilir. Bu yeni nəqliyyat infrastrukturu Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin önəmli hissəsinə çevriləcək. Əminəm ki, İƏT-ə üzv ölkələr bu dəhlizdən istifadə edəcəklər.

**Prezident İlham Əliyev**
Aşqabadda keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının
XV Zirvə Toplantısındakı çıxışından
28 noyabr 2021-ci il

## MİLİX YEVDAYEVƏ "ŞƏRƏF" ORDENİ TƏQDİM EDİLİB



Səh. 3

## ZƏFƏRƏ GEDƏN YOL



Səh. 4-5

## "YENİYETMƏ VƏ GƏNCLƏRİ RADİKALİZM VƏ EKSTREMİZM TƏHLÜKƏSİNDƏN QORUYAQ"



Səh. 7

## ŞUŞAMIZI - LƏYAQƏTİMİZİ VƏ BƏXTƏVƏRLİYİMİZİ BİZƏ QAYTARANLAR



Səh. 8-9

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA PİRSAAT BABA ZİYARƏTGAH-MƏSCİD KOMPLEKSİNDƏ VƏ LAHICDAKI BƏDÖYÜN MƏSCİDİNDƏ OLUBLAR

Noyabrın 1-də Şamaxıdakı Pirsaat Baba ziyarətgah-məscid kompleksinin bərpa və yenidənqurma işlərindən sonra açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.



Şamaxı rayonunda Pirsaat çayının sahilində yerləşən Pirsaat Baba ziyarətgahı əhalinin ən çox ziyarət etdiyi müqəddəs ocaqlardan biridir. 2019-cu ildə Şamaxıda baş verən zəlzələ zamanı ziyarətgahın divarlarında çatlar əmələ gəlmişdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2020-ci ildə burada bərpa-yenidənqurma işlərinə və yeni məscid binasının inşasına başlanıldı. Elə həmin il mayın 25-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ziyarətgahın yenidən qurulması çərçivəsində görülən işlərlə tanış oldular. Mütəxəssislərin iştirakı ilə həyata keçirilən işlər nəticəsində tarixi abidə və müqəddəs ziyarətgah-məscid kompleksi qısa müddətdə yenidən quruldu. Məsciddə ibadət zalı ilə yanaşı, mərasim zalları da inşa olunub.

Qeyd edək ki, Prezident İlham Əliyevin xüsusi diqqəti sayəsində dini ziyarətgahlarımız və dini məbədlərimiz yenidən qurulur. Bu sahəyə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da öz töhfəsini verir, istər ölkəmizdə, istərsə də xaricdə dini abidələrin bərpası üzrə layihələr reallaşdırır. Bunlardan biri də Şamaxı şəhərinin girəcəyində, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun kənarında yerləşən Pirsaat Baba ziyarətgahıdır.

Onu da deyək ki, müxtəlif zamanlarda dağıntıya məruz qalmış orta əsrlərə aid bu ziyarətgah 1918-ci ildə Hacı Cəfərqulu adlı xeyirxah şəxs tərəfindən türbə şəklinə salınıb. Ziyarətgah sovetlər dövründə dağıdılsa da, müstəqilliyimizin bərpasından sonra 1993-cü ildə yenidən inşa edilib, lakin zəlzələ nəticəsində dini ocağa zərər dəymişdi. Ötən ildən başlayaraq həyata keçirilən genişmiqyaslı yenidənqurma işləri nəticəsində artıq dini ibadətgah yenidən əhalinin ixtiyarına verilir.

Ziyarətgah-məscid kompleksinin ətrafında geniş abadlıq-yaşıllaşdırma işləri görülüb.

Eyni zamanda, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lahıcdakı Bədöyün məscidində aparılan bərpa-təmir işləri ilə tanış olublar. Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov məlumat verib ki, ötən müddət ərzində 1791-ci ildə inşa edilən Bədöyün məscidində və ətraf ərazilərdə Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa-təmir işləri aparılıb. Görülən işlər nəticəsində məscid orijinal formasına uyğun bərpa edilib. Məscidin minarəsi yenidən qurulub, dəstəmazxana inşa olunub. Məscidin qadınlar üçün nəzərdə tutulan hücrə və şəbəkələri əvvəlki görünüşünə qaytarılıb.

# ŞUŞADA DAŞALTI MƏSCİDİNİN TƏMƏLİ QOYULUB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada Daşaltı məscidinin təməlini qoyublar.

Azad edilmiş ərazilərimizdə işğal dövründə düşmən tərəfindən dağıdılmış dini-mənəvi abidələrimiz bərpa olunur və yeniləri tikilir. Zəfər Günü ərəfəsində belə bir addımı atmaqla Prezident İlham Əliyev dünyaya növbəti mesajı verir: Biz nəinki torpaqlarımızı abadlaşdırır, keçmiş məcburi köçkünlərimizi geri qaytarmaq üçün müasir infrastruktur yaradır, həm də ermənilərin bu torpaqlarda dini-mədəni abidələrə qarşı həyata keçirdiyi vandallığın izlərini təmizləyir, müqəddəs dəyərlərimizə sahib çıxırıq.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ İNSAN QARDAŞLIĞI ALİ KOMİTƏSİNİN BAŞ KATİBİ İLƏ GÖRÜŞÜB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı İnsan Qardaşlığı Ali Komitəsinin Baş katibi Məhəmməd Əbdülsalam ilə görüşüb.



DQİDK sədri görüşdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dinə dövlət qayğısı və bu istiqamətlərdə Dövlət Komitəsinin fəaliyyəti haqqında ətraflı məlumat verib. Habelə Komitə sədri ölkəmizdə hökm sürən tolerantlıq mühiti, ayrı-ayrı dinlər, konfessiyalar arasındakı qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətlərinə diqqət çəkib.

Bu günlərdə ildönümü qeyd edilən 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfər barədə də danışan Mübariz Qurbanlı işğaldan azad olunmuş ərazilərdəki erməni vandalizminin miqyasını, Qarabağda aparılan bərpa və quruculuq işlərinin əhəmiyyətini xüsusilə vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən İnsan Qardaşlığı Ali Komitəsinin Baş katibi Məhəmməd Əbdülsalam Azərbaycanın dinlərarası əlaqələrin möhkəmlənməsinə, müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunması istiqamətində göstərdiyi bütün səyləri yüksək dəyərləndirdiyini diqqətə çatdırıb. Rəhbərlik etdiyi qurumun ölkəmizin dinlərarası həmrəyliyin gücləndirilməsi sahəsindəki fəaliyyət və təşəbbüsləri dəstəkləməyə hazır olduğunu qeyd edib.

Sonda qonağa DQİDK-nın nəşr etdirdiyi kitablar təqdim edilib.

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA ŞUŞADA AŞAĞI GÖVHƏR AĞA MƏSCİDİNDƏ HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN APARILAN BƏRPA İŞLƏRİ İLƏ TANIŞ OLUBLAR





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada Aşağı Gövhər Ağa məscidində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri ilə tanış olublar.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlərlə bağlı məlumat verib.

Otuz ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan şəhər və rayonlarımız, oradakı yaşayış və inzibati binalar, bütün infrastruktur ermənilər tərəfindən dağıdılıb, təbii sərvətlərimiz talan edilib, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimiz vandalizm aktlarına məruz qalıb. İşğal altında olan torpaqlarımız Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində azad edildikdən sonra bu ərazilərdə geniş bərpa-quruculuq işlərinə başlanılıb. Bu çərçivədə Şuşa şəhərində Heydər Əliyev Fondu tərəfindən də bir sıra tarixi, mədəni abidələrin bərpası üzrə layihələr həyata keçirilir.

Şuşa şəhəri işğal altında olduğu müddətdə ermənilər tərəfindən dağıdılmış Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa və Saatlı məscidləri ilkin layihəyə uyğun olaraq bərpa olunur. Hər üç məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Ötən bir il ərzində Azərbaycan, Avstriya, İtaliya, Latviya və Türkiyədən olan ekspertlər tərəfindən qeyd olunan məscidlərdə qiymətləndirmə işləri aparılıb, bərpa layihəsi işlənilib. Hər üç məscidin bərpa işləri "Paşa Holdinq"in maliyyə dəstəyi ilə həyata keçirilir. Heydər Əliyev Fondu tarixi Yuxarı Gövhər Ağa məscidində bərpa işlərinin birinci mərhələsini artıq başa çatdırıb. Hazırda məsciddə ikinci mərhələ üzrə bərpa işləri aparılır. Bu mərhələdə məsciddə ilkin layihə qorunmaqla möhkəmləndirmə işləri həyata keçiriləcək, məscidin ərazisində olan və ermənilər tərəfindən dağıdılmış mədrəsə də bərpa ediləcək. Ən geniş bərpa işləri dağıntıların miqyasına uyğun olaraq, Aşağı Gövhər Ağa məscidində aparılacaq. Məscidlərin minarələri bərpa olunacaq, eləcə də dam və döşəmə örtükləri dəyişdiriləcək.

# MİLİX YEVDAYEVƏ "ŞƏRƏF" ORDENİ TƏQDİM EDİLİB



Noyabrın 25-də Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Prezident İlham Əliyevin 26 iyul 2021-ci il tarixli Sərəncamına əsasən "Şərəf" ordeni ilə təltif edilən Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayevə mükafatı təqdim olunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan regionda iqtisadi gücü ilə fərqləndiyi kimi, dövlət-din münasibətlərinin təkmilləşdirilməsi və inkişafı kontekstində də ciddi uğurlara imza atıb. Ümummilli Lider Heydər Əliyev yolunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən dövlət-din münasibətləri sahəsində aparılan siyasət dünya ölkələri tərəfindən nümunəvi model kimi qəbul olunur. Dövlət dini icmalara göstərdiyi qayğını və diqqəti günügündən artırır. Prezident İlham Əliyevin sərəncamları ilə ölkəmizdəki dini qurumlara maliyyə yardımının göstərilməsi dini müxtəlifliyin qorunmasına və dinlərarası qarşılıqlı etimadın möhkəmlənməsinə xidmət edir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətində xüsusi yer tutan dini məbədlərin inşası və bərpası üzrə baş tutan layihələr təkcə ölkə daxilində deyil, onun hüdudlarından kənarda da böyük əks-səda doğurur. Bütün bunlar ölkəmizdə dinə dövlət qayğısının bariz göstəricisi, ümumiyyətlə, dövlət-din münasibətlərinin ən yüksək məcrada davam etməsinin təzahürüdür. Daha sonra Mübariz Qurbanlı dini konfessiya rəhbərini dövlət təltifinə layiq görülməsi və yubileyi münasibətilə təbrik edərək Milix Yevdayevin ölkəmizdə multikultural, tolerant ənənələrin qorunması istiqamətindəki xidmətləri, ictimai fəaliyyəti barədə danışıb. Bildirib ki, M.Yevdayev dinlərarası harmoniyanın inkişafına böyük töhfələr verir, Azərbaycan həqiqətlərinin dünyada təbliği sahəsində daim fəallıq nümayiş etdirir, əlindən gələni əsirgəmir. Xalqımızın parlaq qələbəsi ilə yekunlaşan 44 günlük Vətən Müharibəsində Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə ölkəmizdəki digər dini konfessiyalar kimi Bakı şəhəri Dağ yəhudiləri dini icmasının da xüsusi rolu olub. Komitə sədri Milix Yevdayevin uğurlu fəaliyyətinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini, bu gün təqdim olunan ordenin bunun əyani sübutu olduğunu vurğulayıb.



DQİDK sədrinin birinci müavini Səyyad Salahlı qeyd edib ki, Milix Yevdayev daim Azərbaycana sonsuz sədaqəti ilə seçilir, vətəndaşlıq mövqeyini və azərbaycançılıq ideyalarına sadiqliyini hər zaman ləyaqətlə nümayiş etdirir.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini müfti Hacı Salman Musayev isə çıxışında M.Yevdayev ilə birgə etdiyi xarici səfərlərə toxunaraq onun Azərbaycanın dini tolerantlıq modelinin özünəməxsus özəlliklərinin təbliği istiqamətindəki rolu, eyni zamanda xarici mətbuatda yayımlanan məqalələrinin önəmi barədə danışıb.

Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili də səbəbkara səmimi təbriklərini çatdıraraq Azərbaycanda həyata keçirilən dövlət siyasətinin ölkədəki mövcud tolerantlıq mühitini daha da dərinləşdirdiyini, xalqların və dinlərin nümayəndələri arasındakı tarixi dostluq tellərini daha da möhkəmləndirdiyini bildirib.

Sonra "Şərəf" ordeni Milix Yevdayevə təqdim olunub.

Milix Yevdayev öz növbəsində fəaliyyətinə verilən yüksək dəyərə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib. Daim Azərbaycan dövlətinin möhkəmlənməsinə xidmət etdiyini deyən dini konfessiya rəhbəri yəhudilərin Azərbaycanın bütün qələbələrinə sevindiyini, Azərbaycanı öz doğma vətənləri hesab etdiklərini deyib. "Biz dağ yəhudiləri uzun əsrlərdir ki, bu torpaqda məskunlaşmışıq. Azərbaycan xalqı həmişə bizə dayaq olub və bir qalxana çevrilərək həmişə bizi bütün bəlalardan müdafiə edib. Azərbaycanı özünə doğma Vətən bilən yəhudilər heç vaxt antisemitizmə və ayrı-seçkiliyə məruz qalmayıblar. Biz azərbaycanlılarla doğmalaşıb, qardaşlaşmışıq. Bu qardaşlığın rəmzidir ki, Azərbaycanda yaşamış və indi bütün dünyaya yayılmış dağ yəhudilərinin hər biri özünü hər vaxt, hər zaman azərbaycanlı sayır və Azərbaycanı öz Vətəni hesab edir. Biz Azərbaycanın bir parçasıyıq, bizi heç vaxt Azərbaycandan ayırmaq mümkün deyil. Harada yaşamağımızdan, harada olmağımızdan asılı olmayaraq biz həmişə azərbaycanlıyıq", - deyə M.Yevdayev vurğulayıb.

# ZƏFƏRƏ GEDƏN YOL



***Mübariz QURBANLI,***
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri*

**8 Noyabr – Zəfər Günü Azərbaycan xalqının qəhrəmanlıq salnaməsini özündə əks etdirən mühüm tarixi hadisələrdən biridir. Bir il bundan əvvəl, sentyabrın 27-də Ermənistanın hərbi təxribatı nəticəsində başlayan Vətən müharibəsi Azərbaycanın şanlı qələbəsi ilə başa çatdı və 30 il ərzində torpaqlarımızı işğal altında saxlayan erməni faşizminə sarsıdıcı zərbə vuruldu.**

Zəfərə gedən yol müxtəlif mərhələlərdən keçdi, Azərbaycan dövlətinin milli maraqlara əsaslanan daxili və xarici siyasətinin nəticəsində mümkün oldu.

Dövlət müstəqilliyini yenidən bərpa etdiyi ilk dövrdə ölkəmizdə xaos və anarxiya hökm sürürdü. Ağır sosial-iqtisadi və siyasi böhranın nəticəsində cəmiyyət idarəolunmaz vəziyyətlə üzləşmişdi ki, bu da Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına şərait yaradırdı. Yalnız Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışından sonra cəmiyyətin bütün sahələrində olduğu kimi, ordu quruculuğunda da inkişaf mərhələsinin bünövrəsi qoyuldu və Ermənistanın hərbi təcavüzünün qarşısı alındı.

Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün qətiyyətli diplomatik mübarizə apardı, onun təşəbbüsü ilə BMT Təhlükəsizlik Şurası qətnamələr qəbul etdi. 1993-cü ilin dekabr ayından 1994-cü il yanvar ayının əvvəllərinə kimi davam edən Horadiz döyüşlərində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş bir sıra yaşayış məntəqələri azad edildi. Heydər Əliyevin hakimiyyəti dövründə ölkəmizin hərbi təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə mühüm işlər görüldü. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu Prezident İlham Əliyevin uğurla davam etdirməsi nəticəsində Qarabağ münaqişəsinin aradan qaldırılması üçün ciddi siyasi-iqtisadi və mənəvi-psixoloji zəmin yarandı ki, bu da özünü 44 günlük Vətən müharibəsində göstərdi. Torpaqlarımızın işğaldan azad olunması Azərbaycan tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edir. Bu möhtəşəm Zəfərin əldə edilməsi Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, son 18 ildə ordu quruculuğu və sosial-iqtisadi sahələrdə, xarici siyasətdə əldə etdiyi uğurlar, milli birlik və vətəndaş həmrəyliyi ilə sıx şəkildə bağlıdır.

## Ordu quruculuğunda uğurlar

Ötən illər ərzində Prezident İlham Əliyevin ordu quruculuğu sahəsində apardığı məqsədyönlü siyasəti nəticəsində müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşdı. Prezident İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli Sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyinin yaradılması ordu quruculuğu sahəsində atılan mühüm addımlardan biri oldu. Son illər Azərbaycanda 20-dən çox hərbi sənaye müəssisəsi tikilib istifadəyə verilib.

Vətən müharibəsi başlamazdan əvvəl də Ermənistanın hərbi təxribatlarının qarşısını Azərbaycan Silahlı Qüvvələri qətiyyətlə alırdı. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə ölkəmizin düşmənlə təmas xəttində yerləşən mövqeləri və yaşayış məntəqələri Ermənistan tərəfindən intensiv atəşə məruz qalanda Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatı ilə təxribatların qarşısını aldı, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndini və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqeləri işğaldan qurtardı. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad olundu, dövlət sərhədi boyunca əlverişli strateji yüksəkliklər işğaldan qurtuldu, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürüldü. 2020-ci ilin iyul ayında baş vermiş Tovuz döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitləri böyük qəhrəmanlıq göstərərək Ermənistanın törətdiyi hərbi təxribatların qarşısını qətiyyətlə aldılar.

Əvvəllər ermənilər dünyaya ordularının yenilməz, güclü olması haqqında yalan və şişirdilmiş məlumatlar yayırdılar. Lakin Vətən müharibəsi ermənilərin bu cür iddialarının reallıqdan uzaq, cəfəngiyyat olduğunu sübut etdi. Azərbaycan Silahlı Qüvvələri cəmi 44 gün ərzində Ermənistanın hərbi birləşmələrini darmadağın etməklə öz gücünü bütün dünyaya göstərdi. Müharibə dövründə hərbçilərimizin əhvali-ruhiyyələri və mənəvi-psixoloji hazırlıqlarının yüksək səviyyədə olduğuna, döyüş tapşırıqlarını böyük məharətlə yerinə yetirdiklərinə şahid olduq.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bildirirdi ki, Azərbaycan dövləti öz ərazilərinin Ermənistanın işğalı altında qalması ilə heç vaxt barışmayacaq: **"Dediyim sözlər həyatda öz yerini tutdu və Azərbaycan Qurtuluş savaşına başlayaraq öz tarixi torpaqlarını işğalçılardan azad etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları bizim torpaqlardan qovdu və öz ərazi bütövlüyünü, torpaq bütövlüyünü bərpa etdi".** Hələ Vətən müharibəsi başlamazdan əvvəl Ermənistanın hərbi təxribatlarının və təcavüzünün qarşısının alınması istiqamətində Azərbaycan dövləti mühüm hazırlıq işləri gördü. Prezident İlham Əliyevin dediyi kimi: **"Dondurulmuş münaqişə vəziyyətində olsa da, müharibə şəraitindəki ölkədə həyatın bütün halları üçün döyüş əməliyyatlarının aparılması planı, təbii ki, çoxdan işlənib hazırlanırdı. Əlbəttə, yeni reallıqlar, Azərbaycanın yeni imkanları, o cümlədən texnoloji imkanları nəzərə alınmaqla bu plana vaxtaşırı dəyişikliklər edilirdi və hər dəfə həmin dəyişikliklər mənim tərəfimdən təsdiq olunurdu".**

Vətən müharibəsi dövründə düşmən əlverişli coğrafi mövqe tutmasına və yerləşdiyi ərazinin relyefinin ona böyük üstünlük verməsinə baxmayaraq, Azərbaycan Silahlı Qüvvələrinin qarşısında tab gətirə bilmədi, 10 min nəfərdən çox erməni əsgər və zabit fərarilik edərək döyüş meydanından qaçdı. Ermənilərdən fərqli olaraq, Azərbaycan Silahlı Qüvvələrinin hərbçiləri isə döyüşlərdə qəhrəmanlıq və fədakarlıq göstərərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdilər ki, bununla da tarixi ədalət zəfər çaldı. Düşmənin 30 il ərzində qurduğu istehkamları Azərbaycan hərbçilərinin canı-qanı bahasına torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdə şücaət göstərmələri, bu yolda şəhidlik zirvəsinə ucalmaları və qazi olmaları yenilməzlik, mətinlik, qəhrəmanlığın parlaq təzahürüdür.

Vətən müharibəsi erməni faşizminin iç üzünü bir daha dünyaya göstərdi. Müharibə dövründə düşmən döyüş meydanında məğlub olarkən yenə də insanlığa sığmayan ən çirkin əməllərə əl atdı. Ermənistan qadağan olunmuş silahlardan və ballistik raketlərdən istifadə edərək ölkəmizin şəhər və kəndlərinə müntəzəm olaraq atəş açmağa başladı. Lakin düşmənin bu cür mənfur hərəkətlərinin qarşısını İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri aldı.

## Fəal diplomatik mübarizə

Azərbaycanın Vətən müharibəsində sosial-iqtisadi baxımdan inkişaf edən dövlət kimi iştirakı şanlı qələbənin əldə olunmasında böyük rol oynadı. Bu gün ölkə iqtisadiyyatının şaxələnməsi, adambaşına düşən milli gəlirin artması, makroiqtisadi sabitliyin qorunması, qeyri-neft sektorunun inkişafı və digər sahələrdə böyük uğurlar əldə edilir. Azərbaycanın beynəlxalq enerji-nəqliyyat layihələrində fəal iştirakı ölkəmizin iqtisadiyyatının inkişafına mühüm təsir göstərir. Azərbaycanla dünya dövlətləri arasında ticarət-iqtisadi əlaqələr möhkəmlənir və ölkəmizin iqtisadiyyatına böyük həcmdə xarici sərmayələr qoyulur. Regionların inkişafını nəzərdə tutan dövlət proqramlarının həyata keçirilməsi qeyri-neft sektorunun inkişafına, sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılması və yoxsulluq səviyyəsinin azaldılmasına mühüm təkan verir.

Azərbaycan bir çox postsovet dövləti ilə müqayisədə ümumi iqtisadi gücünə, milli iqtisadiyyatın kəmiyyət və keyfiyyət göstəricilərinə görə qabaqcıl yerlərdən birini tutur. Ölkə iqtisadiyyatının neftdən və xarici amillərdən asılılığının azalması ümumi daxili məhsulda qeyri-neft sektorunun payını artırır. Prezident İlham Əliyev sosial-iqtisadi sahədə düşünülmüş və məqsədyönlü siyasət həyata keçirməklə Azərbaycanın davamlı inkişafını, xalqımızın əmin-amanlıq şəraitində yaşamasını təmin edir ki, bu da Vətən müharibəsində qələbəni şərtləndirən vacib faktorlardan biri oldu.

Ötən illər ərzində Azərbaycanın dünya dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələrini möhkəmləndirməsi və bundan davamlı inkişafda səmərəli vasitə kimi istifadə etməsi, regional və beynəlxalq təhlükəsizliyin təmin olunması və digər istiqamətdə atdığı addımlar Vətən müharibəsində qələbənin əldə edilməsində mühüm rol oynadı. Prezident İlham Əliyevin apardığı xarici siyasətdə Qarabağ münaqişəsinin həlli məsələsi daim xüsusi yer tuturdu. Azərbaycan Prezidenti beynəlxalq münasibətlərdə hökm sürən ikili standartlar siyasətinə və Qarabağ münaqişəsinə münasibətdə beynəlxalq təşkilatların seyrçi mövqedən çıxış etmələrinə həmişə kəskin etirazını bildirirdi. Prezident İlham Əliyev həm Ermənistan prezidentləri və baş naziri ilə danışıqlarda, həm də BMT Baş Məclisinin sessiyalarında, ATƏT, Avropa Şurası, İƏT, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatların tədbirlərində çıxışı zamanı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi məlum dörd qətnamənin Ermənistan tərəfindən beynəlxalq hüquqi prinsiplərə zidd olaraq yerinə yetirilmədiyini vurğulayırdı.

Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində Ermənistan hakimiyyətinin danışıqlardan yayınmaq və onun formatını dəyişdirmək cəhdlərinin qarşısı alındı. Ötən illər ərzində nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə Qarabağ münaqişəsinə xüsusi diqqət yetirildi. BMT Baş Assambleyasının 2006-cı və 2008-ci illərdə keçirilən sessiyalarında qəbul edilmiş sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması faktı pislənildi, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyi bildirildi. ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipi əsasında Qarabağ münaqişəsinin həllinin mümkünlüyü vurğulandı.

Qarabağ münaqişəsinin yaranması səbəbləri və nəticələri ilə bağlı həqiqətləri Prezident İlham Əliyevin mütəmadi şəkildə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırması Ermənistanın Azərbaycana qarşı qarayaxma kampaniyasını fiaskoya uğratdı. Buna misal olaraq, 2019-cu il oktyabrın 3-də Rusiyanın Soçi şəhərində keçirilmiş "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı toplantısında, həmin il oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilmiş iclasında, 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycanın qətiyyətli mövqeyini ifadə edən

davamı səh. 5

# ZƏFƏRƏ GEDƏN YOL

əvvəli səh. 4

çıxışlarını göstərmək olar. Prezident İlham Əliyev dəfələrlə bildirirdi ki, Qarabağ münaqişəsi yalnız BMT Təhlükəsizlik Şurasının qətnamələrinin Ermənistan tərəfindən yerinə yetirilməsi yolu ilə həll oluna bilər. Azərbaycan Prezidentinin beynəlxalq hüquqi prinsiplərə əsaslanan bu çağırışlarına və tələblərinə Ermənistan əməl etmədi və nəticədə Vətən müharibəsində öz cəzasını aldı.

### Azərbaycana dəstək

Dünya dövlətləri Vətən müharibəsi dövründə hərbi əməliyyatlara böyük həssaslıqla yanaşdı. Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan, həmçinin digər dövlət və hökumət nümayəndələri Azərbaycanın öz ərazi bütövlüyünün və suverenliyinin bərpası naminə apardığı mübarizəni fəal şəkildə dəstəklədi, öz çıxışlarında daim ölkəmizin yanında olduqlarını bildirdilər. Rusiya Prezidenti Vladimir Putin bəyan etdi ki, "Ermənistan KTMT çərçivəsində müttəfiqdir, amma Dağlıq Qarabağ Ermənistana aid deyil. Odur ki, Qarabağ ərazisindəki hərbi əməliyyatlarla bağlı Rusiya vasitəçilikdən savayı, hər hansı öhdəlik daşımır".

Böyük Britaniya Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyini müdafiə etdi və ölkəmizin ərazi bütövlüyünü dəstəklədi. BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsinə dair Təhlükəsizlik Şurasının sədri adından hazırlanan və Azərbaycanın əleyhinə olan bəyanat layihəsi Təhlükəsizlik Şurasının daimi üzvü olan Böyük Britaniyanın vetosu ilə qəbul edilmədi. Pakistanın Xarici İşlər Nazirliyi Azərbaycanın haqlı mövqe tutduğunu və BMT Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi məlum dörd qətnamənin tələblərinin yerinə yetirilməsinin vacibliyini bəyan etdi. İsrailin "Yisrael Beiteinu" Partiyasının lideri, keçmiş xarici işlər və müdafiə naziri Aviqdor Liberman Qarabağın Azərbaycanın ərazisi olduğunu vurğuladı: "Elə buna görə də BMT üzvü olan heç bir dövlət, o cümlədən Ermənistanın özü də Dağlıq Qarabağı suveren qurum kimi tanımayıb. Tarixi gerçəklik, beynəlxalq hüquq, İsrail dövlətinin mənafeyi baxımdan bizim mövqeyimiz tamamilə birmənalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bu ərazi bütövlüyü bərpa olunmadan regionda məsələnin həllinin mümkün olmadığını düşünürük. Azərbaycanın ərazi bütövlüyü tarixi, beynəlxalq, milli mənafe baxımdan İsrailin rəsmi mövqeyidir". Müharibə dövründə ATƏT-in Minsk qrupunun amerikalı keçmiş həmsədri Riçard Hoqland bildirdi ki, Ermənistan Azərbaycanın suveren ərazisini işğal edib. Həmçinin İtaliya Azərbaycanın haqlı mövqeyini müdafiə edərək, onun ərazi bütövlüyünü dəstəklədi. İtaliyanın Kampobasso əyalətinin Sepino və San Culiano del Sannio bələdiyyələri, Milan əyalətinin Korbetta şəhər Bələdiyyə Şurası Ermənistanın Azərbaycana qarşı hərbi təcavüz, etnik təmizləmə və soyqırımı siyasətini pisləyən, Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirən sənədlər qəbul etdi. Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Djaferoviç və Demokratik Fəaliyyət Partiyasının lideri Bakir İzetbegoviç Azərbaycana dəstək verdiklərini və Ermənistanı qınadıqlarını bildirdilər. Macarıstanın Xarici İşlər və Ticarət Nazirliyi Qarabağın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində yerləşdiyini bəyan etdi.

### Milli birlik və həmrəylik

Ölkəmizdə milli həmrəyliyin və vətəndaş birliyinin möhkəmlənməsi istiqamətində aparılan dövlət siyasəti özünün məntiqi nəticəsini Vətən müharibəsi dövründə göstərdi. Azərbaycan dünyada müxtəlif sivilizasiyaların qovuşduğu tolerant məkan, multikultural dəyərlərin inkişaf etdiyi çoxmillətli ölkə kimi tanınır. Ölkəmizdə müxtəlif millətlər və dinlər arasında qarşılıqlı etimad mühiti mövcuddur. Milli və dini münasibətlərin inkişafı sahəsində Prezident İlham Əliyevin apardığı siyasət etnik və dini mənsubiyyət, mədəni dəyərlər və adət-ənənələrdən asılı olmayaraq, ölkə vətəndaşları tərəfindən dəstəklənir. Qeyd edək ki, müharibədən əvvəl də ermənilərin hərbi təxribatlarının qarşısının alınmasında xalq-dövlət-ordu birliyi mühüm rol oynayırdı.

Ermənistan Azərbaycanın işğaldan azad olunmuş ərazilərindəki kəndləri, qəsəbələri və şəhərləri yerlə-yeksan etməklə yanaşı, həm də xalqımıza məxsus tarixi-dini abidələri dağıdıb, onların bir qismini isə erməniləşdirməyə çalışıb. Bu ərazilərdə 67 məsciddən 65-i tamamilə dağıdılıb, digər yarıdağılmış məscidlərdə isə xalqımızı və ümumiyyətlə, bütün dünya müsəlmanlarını təhqir etmək məqsədilə mal-heyvan saxlanılıb. Bütün bunlar Ermənistanda azərbaycanfobiya və islamofobiyanın rəsmi ideologiya səviyyəsinə qaldırıldığını sübut edir. Bunun nəticəsidir ki, 30 il ərzində Azərbaycanın işğaldan azad olunmuş ərazilərində erməni faşizminin dağıdıcılığı tüğyan edib.

### Yeni reallıqlar

Ermənistanın hərbi birləşmələrini Azərbaycan Silahlı Qüvvələrinin cəmi 44 gün ərzində darmadağın etməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması xalqımızın milli qürur hissini və ləyaqətini özünə qaytardı. Müharibənin ilk günlərindən başlayaraq Ali Baş Komandan İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitləri ilə fəxr etdiyini, onlarla qürur duyduğunu bildirdi. Həm işğal, həm də müharibə dövründə xarici təzyiqlərə və ikili standartlar siyasətinə baxmayaraq, Azərbaycan özünün tarixi ərazilərini işğaldan azad etdi. Ermənistan silahlı qüvvələrinin darmadağın edilməsi ilə bütün dünya "yenilməz Ermənistan ordusu" mifologiyasına son qoyulduğunu gördü.

Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə 30 ilə yaxındır ki, BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan məlum dörd qətnaməsinin tələbləri yerinə yetirildi, bölgədə yeni geosiyasi və geoiqtisadi reallıq yarandı. Şanlı qələbədən sonra Prezident İlham Əliyevin dediyi kimi: **"Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".**

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən birgə Bəyanatın imzalanması tarixə Vətən müharibəsində Azərbaycanın hərbi Zəfəri, Ermənistanın isə kapitulyasiyası kimi daxil oldu. Bununla da Qarabağ münaqişəsi hərbi-siyasi yolla həll edilərək tarixə çevrildi. Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü və xalqımızın milli ləyaqəti bərpa olunmaqla yanaşı, həm də erməni faşizminin başı əzildi. 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında qələbəyə həsr olunmuş Zəfər paradı Azərbaycan Silahlı Qüvvələrinin gücünü bütün dünyaya göstərdi.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzalaması Vətən müharibəsinin yekunlarından biri kimi, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasını ifadə edən mühüm siyasi-tarixi hadisə oldu. Müharibədən sonrakı şəraitə və reallığa uyğun yeni tələblər ortaya çıxdı. Bu aspektdən yanaşsaq, iqtisadi rayonların yeni təsnifatının aparılmasının uzaqgörən addım olduğunu görərik. İqtisadi rayonların yeni təsnifatına Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının daxil edilməsi vacib əhəmiyyət daşıyır. Qarabağ iqtisadi rayonunun yaradılması "Qarabağ Azərbaycandır!" şüarının növbəti rəsmi ifadəsi idi. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü ermənilərin "status" məsələsinə birdəfəlik son qoydu, Xankəndi, Xocalı və Xocavəndin taleyi ilə bağlı spekulyasiyaların üstündən xətt çəkdi. "Şərqi Zəngəzur" iqtisadi rayonunun yaradılması isə mühüm geosiyasi və geoiqtisadi əhəmiyyət kəsb edən hadisə oldu.

Vətən müharibəsi dövründə Azərbaycanın haqq işinə Türkiyənin siyasi və mənəvi dəstəyini xüsusi qeyd etməliyik. Məlumdur ki, həmin vaxt bəzi xarici ölkələrdə erməni lobbisinin təsiri altında olan siyasi dairələr qeyri-obyektiv və ədalətsiz mövqe tutaraq Ermənistanın işğalçılıq siyasətini dəstəkləyir və ölkəmizə qarşı şərböhtan kampaniyası aparırdı. Türkiyənin Azərbaycanı dəstəkləməsi isə ermənipərəst xarici dairələri ciddi narahat edirdi. Müharibə dövründə dünyanın nüfuzlu telekanallarına verdiyi müsahibələrində Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq aləmin diqqətinə çatdırması informasiya müharibəsində də dövlətimizin qələbəsini təmin etdi. Xüsusilə, Türkiyədən olan mətbuat nümayəndələrinin Prezident İlham Əliyevdən aldıqları müsahibələr, cəbhə bölgəsindən verdikləri məlumatlar və reportajlar beynəlxalq ictimai rəyin obyektiv şəkildə formalaşmasına mühüm təsir göstərdi.

Türkiyədən alınmış müasir silahlar Azərbaycanın hərbi əməliyyatlarda uğur qazanmasında böyük rol oynadı. 2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycanla Türkiyə arasında müttəfiqlik haqqında Bəyannamənin imzalanması iki dövlət arasında strateji münasibətlərin yüksək zirvəsi oldu. Sənəddə göstərilən müddəalar Azərbaycanla Türkiyə arasında müdafiə sənayesi, nəqliyyat, siyasi, eləcə də digər sahələrdə inkişaf üçün yeni prioritetlər müəyyənləşdirdi. Xüsusilə, Vətən müharibəsindən sonra yaranmış yeni reallığın nəticəsi olaraq Zəngəzur dəhlizinin açılması məsələsinin Bəyannamədə öz əksini tapması geosiyasi əhəmiyyət daşıdı. Xalqımız Türkiyə ilə yanaşı, digər ölkələrin də müharibə dövründə Azərbaycana verdiyi siyasi-mənəvi dəstəyi yüksək qiymətləndirir.

Azərbaycan xalqı Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini böyük ehtiramla yad edir. Müharibə dövründə şəhid olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlara və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq bu il sentyabrın 27-də - Anım Günündə Bakı şəhərində Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə yürüş keçirildi, Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyuldu.

Vətən müharibəsində qələbənin yekunlarından biri olaraq, işğaldan azad edilmiş ərazilərə böyük qayıdış layihələrinin sürətlə həyata keçirilməsi Azərbaycan dövlətinin gücünü və qüdrətini bir daha göstərir. Bu ərazilərdə məcburi köçkünlərin məskunlaşmasının təmin edilməsi məqsədilə geniş quruculuq işləri aparılır, yollar salınır, enerji stansiyaları açılır, hava limanları fəaliyyətə başlayır. Bütün bunlar hər birimizdə böyük qürur və fəxarət hissi yaradır.

Azərbaycan dövləti bölgədə sülhün və sabitliyin yaradılmasının tərəfdarıdır. Prezident İlham Əliyevin çıxışlarında bildirdiyi kimi, hazırda Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanmalı, ölkəmizin ərazi bütövlüyü Ermənistan tərəfindən tanınmalı və sərhədlərin delimitasiyası prosesinə başlanılmalıdır.

Son 18 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi nailiyyətlər və beynəlxalq arenadakı böyük nüfuzu, xalq-iqtidar birliyi, xüsusilə ordu quruculuğu sahəsində görülmüş işlər Vətən müharibəsində qələbəni şərtləndirən vacib amillərdir. Xalqımız 30 ilə yaxındır işğal altında olan torpaqlarımızın azad olunmasını və ölkəmizin ərazi bütövlüyünün bərpasını böyük sevinc hissi ilə qeyd edir.

Vətən müharibəsi dövründə dünya birliyi Azərbaycanın öz suverenliyini qorumağa qadir qüdrətli dövlət olduğunu bir daha gördü. Hamıya aydın oldu ki, Vətən müharibəsindəki şanlı qələbə Prezident İlham Əliyevin milli maraqlara söykənən uzaqgörən siyasətinin, güclü lider kimi beynəlxalq aləmdə yüksək nüfuzunun və xalq-dövlət-ordu birliyinin parlaq nəticəsidir.

# DÖVLƏT KOMİTƏSİNDƏ ZƏFƏR GÜNÜ İLƏ BAĞLI TƏDBİR KEÇİRİLİB

Noyabrın 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 8 Noyabr - Zəfər Günü ilə bağlı tədbir keçirilib.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı tədbir iştirakçılarını Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış Zəfər Günü münasibəti ilə təbrik edib. O qeyd edib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı Qələbə ilə sona çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, güclü ordu strategiyası, milli birlik və döyüşçülərimizin ruh yüksəkliyi sayəsində böyük Zəfərə imza atdı. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti və şanlı Ordumuzun rəşadəti sayəsində qazanılmış böyük Zəfər, eyni zamanda, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, xalqımızın "dəmir yumruq" ətrafında sıx birləşməsi, gənclərimizin Vətən sevgisi, iqtidar-xalq və ordu birliyi sayəsində əldə olundu.



S.Salahlı vurğulayıb ki, böyük Qələbəmizin ilkin təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər Heydər Əliyevin başlatdığı siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində rəşadətli Ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında elə bir zəfər salnaməsi yazdı ki, bu barədə xarici ölkələrin qərargahlarında, hərb müəssisələrində tədqiqatlar aparılır. Əldə olunan bu qələbənin tarixi, iqtisadi, siyasi-diplomatik, mənəvi-psixoloji tərəflərini qeyd edən Komitə sədrinin birinci müavini tarixi zəfərimizdə milli-mənəvi dəyərlərin rolunu da xüsusi vurğulayıb. O bildirib ki, milliyyətindən, dinindən, irqindən asılı olmayaraq hər bir vətəndaşımızın həqiqətən də bir yumruq kimi eyni amal uğrunda birləşməsi bizi qalib ölkəyə çevirdi.

S.Salahlı, eyni zamanda işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa işlərinə diqqət çəkərək bildirib ki, Prezident İlham Əliyevin yürütdüyü uğurlu böyük qayıdış proqramı nəticəsində 30 il əvvəl hətta yaşayış üçün ən vacib əşyalarını belə götürməyə macal tapmadan öz evlərini tərk etmiş sakinlər layiqli həyat şəraiti ilə təmin olunacaq, öz doğma ata-baba yurdlarına qovuşacaqlar və Qarabağın əvvəlki şöhrəti özünə qayıdacaq.

# "MİLLİ DÖVLƏTÇİLİYİMİZİN MÖHKƏMLƏNDİRİLMƏSİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN ROLU"

Dövlət Sərhəd Xidməti (DSX) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə tədbirlər planına uyğun olaraq noyabr ayının 19-da DSX-nın Sərhəd Nəzarətində "Milli dövlətçiliyimizin möhkəmləndirilməsində milli-mənəvi dəyərlərin rolu" mövzusunda seminar keçirilib.

Seminarda iştirak edən hərbi qulluqçular və dəvət olunmuş qonaqlar öncə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən zəngin foto-ekspozisiya ilə tanış olmuş və Dahi Öndərin əziz xatirəsini yad edərək büstü önünə gül dəstəsi düzüblər.

Dövlət himninin səsləndirilməsindən sonra Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Seminarda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxış edərək ölkəmizdə vətənpərvər və sağlam düşüncəli gənclərin yetişdirilməsi, onların Vətəninə məhəbbət, xalqının tarixinə, mədəniyyətinə və milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyələndirilməsi, eləcə də dini fanatizm, radikalizm və ekstremizm meyillərinə qarşı preventiv tədbirlər çərçivəsində bu fəaliyyətlərin əhəmiyyətini vurğulayıb. Natiq DQİDK-nın mütəmadi olaraq müvafiq dövlət orqanları ilə sıx əməkdaşlıq etdiyini, o cümlədən Silahlı Qüvvələrin birləşmələrində maarifləndirici tədbirlərin keçirildiyini bildirib.

Tədbirdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən "Dəmir Yumruq" əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyünün bərpa olunduğu, milli və sərhəd təhlükəsizliyimiz üçün 30 ilə yaxın müddətdə əsas təhdid olmuş ölkəmizin 20 faiz ərazisinin işğalına son qoyulduğunu qeyd ediblər. Azərbaycan Respublikasının Ermənistan üzərində parlaq qələbəsi ilə başa çatmış Vətən müharibəsində Azərbaycan sərhədçilərinin döyüş rəşadətini vurğulayıblar.

Seminarda dini radikallıq meyilləri, ölkəmizin tolerantlıq siyasətinə təhlükə yarada bilən təmayüllərlə mübarizədə hər bir vətəndaşın həssaslıq göstərməsinin vacibliyi qeyd olunub.

Tədbirin sonunda Vətən müharibəsinə həsr edilmiş, DQİDK-nın sifarişi ilə çəkilən "Dəmir yumruq" sənədli filmi nümayiş etdirilib.

# PAKİSTAN MƏTBUATINDA ZƏFƏR GÜNÜ MÜNASİBƏTİLƏ MƏQALƏLƏR DƏRC EDİLİB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Bəhruz Orucovun Pakistanın geniş oxucu auditoriyasına malik nüfuzlu ingilisdilli "Daily IslamabadPOST" qəzeti, "Nation Herald Tribune" nəşri, "DNA-Diplomatic News Agency", "CENTRELINE" elektron xəbər portallarında Azərbaycanın Vətən Müharibəsinə həsr edilmiş "Azərbaycanın Vətən Müharibəsi: 8 Noyabr - Zəfər Günü" (Azerbaijani Patriotic War: November 8 - Victory Day) başlıqlı məqalələri dərc olunub.

Məqalələrdə 2020-ci il sentyabrın 27-dən başlayan 10 noyabradək davam edən, işğal altındakı ərazilərimizin işğaldan azad edilməsi ilə nəticələnən Vətən Müharibəsi və qələbə şərəfinə qeyd edilən şanlı Zəfər Günündən bəhs edilir.

30 il ərzində BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməməsi və beynəlxalq hüququn Azərbaycanın özü tərəfindən təmin edildiyi xüsusi vurğulanır.


05 IslamabadPOST Monday, November 08, 2021

Sugar mafia

Daska revelations

Azerbaijani Patriotic War: November 8 – Victory Day

Bahruz Orujov

How the US-Pakistan alliance hijacked itself

Məqalələrdə bildirilir ki, yenilməz Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük "Dəmir yumruq" əməliyyatı ilə torpaqlarımızı işğaldan azad edib, ölkəmizin ərazi bütövlüyü təmin olunub. Həmçinin qeyd olunub ki, müharibə zonasından uzaq yerləşən şəhərlərimizin qadağan edilmiş silahlarla - Smerç və Scud-B ballistik raketləri ilə bombalanması, mülki vətəndaşlarımızın öldürülməsi erməni vəhşiliyinin bariz nümunəsidir. Eyni zamanda, noyabrın 8-də isə 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən, mədəniyyət beşiyi, Qarabağın tacı sayılan Şuşa şəhərinin işğaldan azad edilməsi, yüksək dağlıq şəraitdə həyata keçirilən Şuşanın azad edilməsi əməliyyatı rəşadətli Azərbaycan sərkərdəsinin şah əsəri olduğu vurğulanıb, beləliklə, Ermənistan Azərbaycan qarşısında təslim olaraq, kapitulyasiyasını elan etmək məcburiyyətində qalıb.

Sonda tariximizin ən parlaq səhifələrindən olan ümummilli Zəfərin əldə olunmasında ölkəmiz və xalqımız adından siyasi və mənəvi həmrəyliklərinə, Azərbaycanın haqq səsini beynəlxalq arenada, müxtəlif platformalarda daim dəstəklədiklərinə görə Türkiyə, Pakistan kimi qardaş dövlətlərə minnətdarlıq bildirilir.

# "YENİYETMƏ VƏ GƏNCLƏRİ RADİKALİZM VƏ EKSTREMİZM TƏHLÜKƏSİNDƏN QORUYAQ"

**LƏNKƏRANDA**

Noyabrın 29-30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı və Lənkəran Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq" mövzusunda seminar keçirilib.



Seminarda DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Dövlət Komitəsinin şöbə müdirləri Oqtay Hüseynov, Qağayı Məmmədov, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı Aparatının əməkdaşı Cavad Miriyev, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Lənkəran bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Qəni Axundzadə və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov çıxış edərək bölgədə dini durumun sabit olduğunu qeyd edib. Şöbə müdiri yeniyetmə və gənclərin iştirakı ilə mütəmadi maarifləndirmə tədbirlərinin keçirildiyini bildirib.

Daha sonra çıxış edən DQİDK sədrinin birinci müavini Səyyad Salahlı ölkəmizdə mövcud olan nümunəvi dövlət-din münasibətləri barədə danışıb. Formalaşmaqda olan yeniyetmə və gəncləri radikal dini təsirlərdən qorunmasının vacibliyinə diqqət çəkən S.Salahlı əlavə edib ki, Dövlət Komitəsi tərəfindən aidiyyəti orqanlarla birlikdə bu istiqamətdə genişmiqyaslı maarifləndirmə işləri həyata keçirilir. O, radikal dini qrupların zərərli təbliğatının qarşısının alınması, onlara qarşı effektiv mübarizə aparılması, dini maarifçilik işinin düzgün metodlarla təşkili məsələlərinə də toxunub. S.Salahlı bəzi radikal qrupların gəncləri öz təsir dairəsinə salmağa çalışmasından danışaraq, bunun qarşısının alınması üçün görülən işlərin intensiv davam etdirildiyini diqqətə çatdırıb.

Dövlət Komitəsi sədrinin birinci müavini insanların dini baxışlarının sağlam müstəvidə formalaşdırılması, gənclərin radikal cərəyanların təsirindən qorunması üçün bu cür maarifləndirici tədbirlərə ehtiyac olduğunu vurğulayıb.



QMİ-inin Lənkəran bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Qəni Axundzadə çıxışında ölkəmizdə din azadlığının, insan hüquqlarının müdafiəsinin hər zaman ön planda olduğunu qeyd edib. Eyni zamanda o, İslamın sülh və həmrəylik dini kimi radikalizmə və ekstremizmə "yox" dediyini vurğulayıb.

Noyabrın 30-da öz işini davam etdirən seminarda yeniyetmə və gənclərə dini radikalizm və ekstremizm barədə ətraflı məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb. Eyni zamanda, ikigünlük seminar çərçivəsində DQİDK tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) nəşr etdirdiyi kitablardan ibarət sərgi təşkil edilib.

**SUMQAYITDA**

Bu qəbildən daha bir seminar Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə noyabrın 25-26-da Sumqayıtda baş tutub.

Tədbiri giriş sözü ilə açan DQİDK sədrinin müavini Sahib Nağıyev ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı hörmət və anlaşma mühitinə diqqət çəkərək, Azərbaycanda belə nümunəvi atmosferin yaranmasında Ümummilli Lider Heydər Əliyevin formalaşdırdığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi din siyasətinin müstəsna rolu olduğunu deyib. Məhz bu siyasətin həyata keçirilməsinin nəticəsidir ki, bu gün ölkədə ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mövcuddur.

Sahib Nağıyev dünyanın bir çox ölkəsində dini, siyasi qarşıdurmaların və iğtişaşların olduğu bir zamanda Prezident İlham Əliyevin tolerant, multikultural və həmrəylik dəyərlərinin təbliği istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində ölkəmizdə tolerantlığın yüksək səviyyədə olmasını, dindarların öz dini etiqadlarını azad şəkildə gerçəkləşdirməsini, dini qurumların fəaliyyətində problemlərin olmamasını, din xadimlərinə diqqət və qayğının göstərilməsini Azərbaycanın artıq dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük, humanitar əməkdaşlıq mərkəzinə çevrilməsinin göstəricisi kimi səciyyələndirib.



Sədr müavini təəssüflə qeyd edib ki, bəzən dindən siyasi məqsədlər üçün istifadə olunur, insanları xurafata, dini fanatizmə sürükləməyə cəhd göstərilir, din pərdəsi altında radikal və ekstremist meyillər mənəvi cəhətdən sağlam həyat tərzini korlamağa, vətəndaş həmrəyliyini pozmağa, xalqın tarixi ənənələrinə, milli düşüncə sisteminə zərbə vurmağa hədəflənir. Bu baxımdan dini radikalizm və ekstremizm bu gün də vətəndaş cəmiyyəti, hüquqi, demokratik dövlət üçün təhlükə mənbəyi hesab edilir.

Sədr müavini ölkəmizin müxtəlif regionlarında konfransların keçirilməsinin əsas məqsədinin də cəmiyyətin, xüsusilə də gənc nəslin radikalizm və ekstremizm təhlükəsindən uzaq, ənənəvi dini və milli dəyərlərimiz, bu dəyərlərin əsas prinsipləri haqqında doğru və sağlam mənbələrə əsaslanan biliklərlə təmin etmək olduğunu bildirib.

Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə çıxışında dini radikalizm və ekstremizm meyillərinin yaranması, yayılması və bu istiqamətdə xarici amillərin təsiri ilə bağlı məsələlərə toxunub. Bildirib ki, Azərbaycanın 30 illik müstəqillik dövründəki geniş inkişaf tarixində sözügedən istiqamətdə kifayət qədər təcrübələr toplanılıb. Ötən əsrin 90-cı illərində humanitar təşkilat adı altında Azərbaycana çoxsaylı missioner qrupların gəldiyini və cəmiyyətdəki sosial, iqtisadi və mənəvi sarsıntıların olduğu bir dövrdə özləri üçün sosial baza yaratmağa çalışdıqlarını, xüsusilə əsas hədəf kimi gəncləri seçdiklərini diqqətə çatdıran şöbə müdiri bu meyillərin qarşısının alınması istiqamətində dövlətin atdığı addımlara toxunub.

Sumqayıt şəhər İcra Hakimiyyətinin əməkdaşı Fərman Kazımov və Sumqayıt Dövlət Universitetinin prorektoru Əsəd Məmmədov mövzunun aktuallığına toxunaraq bu mövzuda keçirilən görüşlərin gənclərin yad dini təsirlərdən qorunması istiqamətində böyük əhəmiyyət daşıdığını vurğulayıblar.

İkigünlük seminar çərçivəsində növbəti gün DQİDK tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun (MDTF) nəşr etdirdiyi kitablardan ibarət sərgi təşkil edilib. Geniş oxucu kütləsinin marağına səbəb olan sərgidə milli-mənəvi dəyərlərimizin, xalqımızın tolerant və multikultural ideyalarının, ənənəvi dini dəyərlərinin təbliği, dövlət-din münasibətlərinin fəlsəfi-siyasi, hüquqi əsasları və sosial-analitik təhlili, eləcə də dini radikalizmə qarşı mübarizə məqsədilə çap edilən kitablar nümayiş etdirilib.

**GƏNCƏDƏ**

Bu mövzuda analoji seminar DQİDK-nın təşkilatçılığı və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə noyabrın 22-23-də keçirilib. Seminarda DQİDK-nın sədr müavini Gündüz İsmayılov, şöbə müdiri Nahid Məmmədov, Gəncə bölgəsi üzrə şöbənin müdiri Həsən Məmmədov, Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının əməkdaşı Azər İbrahimov iştirak ediblər.

Seminarı giriş sözü ilə açan Gündüz İsmayılov bildirib ki, ölkədə hazırda dini durum sabitdir və son illərdə bu sabitlik daha da möhkəmlənib. Həm beynəlxalq miqyasda, həm də ölkə səviyyəsində görülən tədbirlər, radikalizmlə mübarizənin kompleks şəkildə həyata keçirilməsi öz bəhrəsini verir. Azərbaycanda radikalizmlə mübarizə üç istiqamətdə həyata keçirilir - ideoloji, iqtisadi və hüquqi müstəvidə. Radikalizmin birdən-birə yox, mərhələli şəkildə yarandığını bildirən sədr müavini, ilkin mərhələdə qabaqlayıcı tədbirlərin görülməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, ilkin meyillərin yaranması dedikdə, buna xurafatı misal gətirmək olar. Əgər xurafat varsa, onun növbəti mərhələsi mütləq radikalizm olacaq. Bu səbəbdən də ideoloji müstəvidə təbliğatın gücləndirilməsi daha vacibdir.



Gəncədəki dini vəziyyəti təhlil edən sədr müavini bildirib ki, xalqımızın xüsusiyyətləri elədir ki, onları radikalizmə yönəltmək heç də asan deyil. Azərbaycanda radikal ideya və dini düşüncələrin, habelə radikal və ekstremist qrupların özünə köklü yer tapması mümkün deyil. Xüsusilə də Gəncə kimi, öz milli-mənəvi dəyərlərinə, soykökünə sadiq olan bir şəhərdə – deyə Gündüz İsmayılov əlavə edib.

DQİDK-nın şöbə müdiri Nahid Məmmədov mövzu ilə bağlı çıxış edərək bildirib ki, xalqımızın milli-mənəvi dəyərləri bütün növ ekstremizmə qarşıdır. İslam dini zorakılığı, başqalarının azadlığını pozmaq cəhdlərini qəbul etmir. Ölkəmizdə dinlə dövlət ayrı olsa da, bir-birinə daim dəstək olub. Məhz bu baxımdan Azərbaycan multikulturalzmi dünyaya nümunədir. N.Məmmədov gəncləri aqressiv münasibət sərgiləməkdən çəkinməyə və daim sağlam bilgilər əldə etməyə çağırıb.

DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Həsən Məmmədov Gəncədə dini radikalizmlə mübarizə çərçivəsində aparılan maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışıb. O qeyd edib ki, aparılan təhlillərlə radikalizm və ekstremizmin əsas qurbanlarının məhz gənclər olduğu müəyyən edilib. Bu fakt nəzərə alınaraq keçirilən maarifləndirmə tədbirlərinə şagird və tələbələrin cəlb olunmasına xüsusi diqqət yetirilir.

Seminarda yeniyetmə və gənclərə dini radikalizm və ekstremizm barədə ətraflı məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

İki gün davam edən seminar çərçivəsində DQİDK tərəfindən Məhsəti Gəncəvi Mərkəzində kitab sərgisi təşkil olunub. Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən çap edilmiş 50 adda 1000-dən artıq kitab sərgi iştirakçılarına hədiyyə edilib.

Qeyd edək ki, keçirilən seminarlar çərçivəsində təşkil olunan sərgilərdəki nəşrlər ictimaiyyətə pulsuz paylanılır. Məqsəd dini sahədə xurafatın mənfi təzahürləri və cəmiyyətə vurduğu ziyanlar, yaratdığı problemlər barədə vətəndaşların maarifləndirilməsindən ibarətdir.

# ŞUŞAMIZI – LƏYAQƏTİMİZİ VƏ BƏXTƏVƏRLİYİMİZİ BİZƏ QAYTARANLAR

*“Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur”.*
**Heydər Əliyev**

*“Şuşasız bizim işimiz yarımçıq olar. Şuşa Qarabağın tacıdır”.*
**İlham Əliyev**

*Bu il 24 dekabr tarixdə Azərbaycan Respublikası Prezidenti, müzəffər Ali Baş komandan İlham Əliyevin 60 yaşı tamam olur. Ölkə əhalisinin əksəriyyəti kimi, mən də Prezident İlham Əliyevə olan hörmət və məhəbbətimi göstərmək üçün onun Azərbaycan dövləti və vətəndaşlarının, qısa şəkildə desək, inkişafı üçün etdikləri haqqında yazmaq qərarına gəldim. Əslində, cənab Prezidentin Azərbaycan dövləti və vətəndaşları üçün gördüyü işlər o qədər çoxdur ki, bütün bunlar haqqında ən kiçik hesab olunan məqalə də çox qalın kitab olmalıdır. Mən isə məqalə yazmaq istəyirdim. Odur ki, Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyətinin bir hissəsi haqqında yazmaq qərarına gəldim. Bu işdə mənə hisslərim kömək oldu. Belə ki, bütün Azərbaycan xalqının Şuşamıza sonsuz məhəbbəti var. Odur ki, Azərbaycan Respublikası Prezidenti, müzəffər Ali Baş komandan İlham Əliyevin Şuşamızın işğaldan azad olunmasında, onun dirçəldilib abad olunmasında əvəzsiz fəaliyyəti haqqında məqalə yazmaq qərarına gəldim. Lakin şəhidlərimiz, qazilərimiz, digər hərbçilərimiz, vətənpərvər azərbaycanlılar, haqqı müdafiə edən dost ölkələr haqqında, qısa da olsa, yazmamaq günah olardı. Hisslərim demişkən...*

Həyat davam etdikcə itirdiklərimiz və qazandıqlarımız olur. Özümü anladığım son 50 il ərzində valideynlərim də daxil olmaqla, bir çox əzizimi, qohumumu, dostumu və dəyəri yüksək maddi nemətləri itirmişəm. Ancaq ermənilərin aqressiv millətçiliyi, həmin dövrdəki Azərbaycan rəhbərlərinin səhv və səriştəsiz siyasəti nəticəsində itirdiklərimiz arasında Şuşanın itirilməsi həyatım boyu itirdiklərim içərisində ən ağırı oldu. Allaha çox şükür ki, dövlət başçımız İlham Əliyevin dərindən düşünülmüş, vətənpərvər, iqtisadi, yüksək idarəçilik, diplomatik siyasəti və xalqın həmrəyliyindən formalaşan dəmir yumruğu ilə Şuşamızı və digər müqəddəs vətən torpaqlarını – ləyaqətimizi və bəxtəvərliyimizi bizə qaytardılar. 2020-ci il 8 noyabr tarixində Prezident, müzəffər Ali Baş komandan İlham Əliyev tərəfindən Şuşanın işğaldan azad olunmasının elan edilməsi həyatım boyu bütün qazandıqlarım içərisində ən böyük qazancım, bəxtəvərliyim və qaytarılan ləyaqətim oldu. O gündən bu mövzuda da hisslərimi qələmə almaq istəyirdim. Lakin yaza bilmirdim. Hisslərimin tam formalaşmağına və bu yazını qələmə almağıma möhtəşəm, misli görünməmiş bir hadisə - 2021-ci il 8 noyabr tarixində Zəfər Gününün bir illiyinə həsr olunmuş Anım Günü yürüşünün önündə Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, Müqəddəs Vətən Müharibəsinin iştirakçıları olan əsgər və zabitlərimizin əllərində hərbçi və mülki şəhidlərimizin portretlərini göstərən şəkil səbəb oldu.



Həmin mənzərədən sonra bu yazını yazıb şəkildə görünənlər haqqında öz hisslərimi hörmətli oxucularla bölüşürəm. Öncədən qeyd edim ki, Şuşamızı göstərilən müvafiq tarixlərdə işğaldan azad olan Cəbrayılımızdan (04.10.2020), Füzulimizdən (17.10.2020), Zəngilanımızdan (20.10.2020), Qubadlımızdan (25.10.2020), Ağdamımızdan (20.11.2020), Kəlbəcərimizdən (25.11.2020) və Laçınımızdan (01.12.2020) ayrı təsəvvür etmirəm və bu bölgələri də Şuşamız qədər sevərək onların da işğaldan azad olunmasına Şuşanın işğaldan azad olunması qədər sevinmişəm. Həm də o da bəllidir ki, qeyd olunan bölgələrimiz işğaldan azad olunmasa, Şuşamız da işğaldan azad olunmazdı. Nə üçün Şuşa yox, Şuşamız? Çünki onun keçmişi və bu günü azərbaycanlılarla bağlıdır. İnşallah, gələcəyi də belə olacaq. Tarixdən məlumdur ki, Şuşamız artıq XIII əsrdə Azərbaycanın məşhur şəhərlərindən biri olmuşdur. Şuşa qalasının tikintisi isə Qarabağ xanı Pənah Əli xan tərəfindən 1750-1757-ci illərdə aparılıb və Şuşa paytaxt elan olunub. Sonralar əhalisi sürətlə çoxalıb və böyük tikinti-quruculuq işləri aparılıb. XX əsrin əvvəllərində Şuşada hər birinin öz məscidi, bulağı və hamamı olan 17 məhəllə mövcud olub. Bu qədər məscidin olması bir daha sübut edir ki, Şuşa azərbaycanlıların şəhəridir. Həmin vaxt şəhərdə təxminən 25 min əhali yaşayırdı ki, bunların içərisində böyük ziyalı təbəqəsi – təxminən 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 naqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42 müəllim və s. olmuşdur. Nəticədə Şuşa Azərbaycanın əsas mədəniyyət və elm mərkəzlərindən birinə çevrilmişdi. Bunu tarixi faktlar da təsdiq edir. Məsələn, 1858-59-cu illərdə Qafqazda səfərdə olan məşhur fransız yazıçısı 56 yaşlı Aleksandr Düma Qarabağ xanının 26 yaşlı qızı, məşhur şair Natəvana şahmat oyununda uduzur. Digər misal: bütün müsəlman şərqinin, xüsusilə Azərbaycanın milli sərvəti və fenomeni Üzeyir Hacıbəylidir. Onun çoxsaylı xidmətləri arasında Şərqdə ilk notlu xalq çalğı alətləri orkestrini yaratmasını, ilk milli operanı yazmasını, Azərbaycan dövlət himninin müəllifi olmasını və s. qeyd etmək olar. Xan qızı Natəvan və Üzeyir Hacıbəylidən başqa, əhalisinin 98%-dən çoxu azərbaycanlılar olan Şuşa çoxsaylı məşhur şair, müğənni, musiqiçi, bəstəkar, elm, mədəniyyət xadimlərinin vətənidir. Hər bir azərbaycanlının fəxr edə biləcəyi bu şəxslərin hamısı haqqında çox kiçik qeydlər aparılsa belə, bu artıq çox böyük bir kitab məlumatı olar. Azərbaycanlıların tikib-qurduğu, yaşayıb-yaratdığı Şuşamız o qədər məşhur idi ki, onu “Kiçik Paris”, “Şərqin konservatoriyası” və s. bu kimi fəxr ediləsi adlarla çağırırdılar. Şuşanın azərbaycanlılara məxsus xoş niyyətli məşhur elm və mədəniyyət mühitində Azərbaycanın başqa bölgələrindən olan və sonradan Şuşada yaşayan Molla Pənah Vaqif kimi azərbaycanlılar və digər millətin nümayəndələri də faydalanıblar və daha da məşhurlaşıblar. Qeyd etdiyim kimi, Şuşamızın gələcəyi də, inşallah, azərbaycanlılarla bağlı olacaq. Bunu Prezident, müzəffər Ali Baş komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti bir daha təsdiq edir: Hər il Şuşanın işğaldan azad olunduğu gün - 8 noyabr tarixi Zəfər Günü kimi bayram ediləcək; Şuşa şəhəri Dövlət Qoruğu elan olunub; Şuşaya rahat çatmaq üçün yüksək standartlara cavab verən “Zəfər yolu” çəkilib; gələcəkdə turizmin inkişafı üçün Şuşada ermənilər tərəfindən dağıdılmış mədəniyyət abidələri, məscidlərlə yanaşı, kilsənin təmiri üçün də Azərbaycan Prezidentinin Sərəncamı ilə dövlət büdcəsindən kifayət qədər vəsait ayrılır; hər il Şuşada “Xarıbülbül” beynəlxalq musiqi festivalı keçiriləcək və s. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Azərbaycan xalqının müqəddəs bayramı olan Novruz Bayramı ərəfəsində - 16 mart 2021-ci il tarixdə Şuşamıza səfəri zamanı dövlət başçımızın dediyi sözlər Şuşamızın gələcəyinin necə olacağını göstərir: “Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz”.

Şuşamızda yaşayıb onun maddi və mənəvi sərvətlərindən faydalanan, lakin ona nankorluq edən ermənilərin mənşəyi məlumdur. 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla Rusiyanın Qafqaz qoşunlarının baş komandanı general Sisianov arasında bağlanan və Qarabağ xanlığının Rusiyanın tərkibinə daxil olmasını şərtləndirən Kürəkçay müqaviləsindən sonra ruslar öz mövqelərini möhkəmləndirmək üçün erməniləri kütləvi şəkildə buraya köçürməyə başladılar. Tarix də göstərir ki, ermənilərin ərazi iddiaları yersizdir və geniş qəlbli Azərbaycan xalqına qarşı çox böyük nankorluqdur. Lakin onlar bir şeyi unudurlar ki, bu nankorluğu Allah onlara heç vaxt bağışlamayacaq və bağışlamadı da!!!

**ŞƏHİDLƏRİMİZ**. Məlumata görə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularından 2908 nəfəri oktyabrın 21-dək dəfn edilib. Həmin vaxt itkin düşmüş hesab olunan 6 nəfərdir. 16 noyabr 2021-ci ildə erməni təxribatı nəticəsində daha 7 nəfər vətən oğlu şəhid olub. Dövlətimizin və hər bir Azərbaycan vətəndaşının, deyərdim ki, gündəlik həyatında ən vacib işlərindən biri şəhidlərimizi hörmət və məhəbbətlə yad etməkdir. Onların ailə üzvlərinə mənəvi və maddi dəstək olmalıyıq. Çünki şəhidlərimiz bizim ləyaqətimiz və bəxtəvərliyimiz üçün özlərini qurban verdilər. Onların sayəsində biz bu gün başımızı dik tutub gəzə bilirik. Şəhidlərə münasibət üçün nümunəni Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş komandan İlham Əliyevdən götürməliyik. Onun şəhidlərimizə hörmət amalı və əməlləri çox ibrətamizdir, bu münasibət onun **BÖYÜKLÜYÜNÜ göstərir: “Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz torpaqlarımızı onların canı-qanı hesabına işğaldan azad etmişik. Şəhid olmuş hər bir insan, gənc bizim ürəyimizdə, Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq... Anım Günündə təşkil olunan yürüş bütün Azərbaycan xalqının birliyini göstərdi, şəhidlərimizin xatirəsinə olan hörmətimizi göstərdi. Yürüşdə aparılan portretlər mənim göstərişimlə gözəl bir xatirə kimi şəhid ailələrinə təqdim edildi. Çünki onlar bizimlə olmasalar da, bu Zəfər yürüşünə bizimlə bərabər çıxıblar. Yəni, bütün Azərbaycan o gün orada idi. Onların ruhu bu gün şaddır. Onlar az yaşayıblar, dünyadan gənc gediblər, şəhid olaraq gediblər. Amma onlar hər zaman ürəyimizdə yaşayacaqlar. Sizin simanızda onların valideynlərinə mən Prezident, Ali Baş Komandan kimi öz təşəkkürümü bildirmək istəyirəm. Çünki doğrudan da bizim şəhidlərimiz şüurlu şəkildə ölümə gedirdilər. Hamımız yaxşı bilirik ki, ağır döyüşlərdə o istehkamları yarmaq, oradan keçmək, dağlara qalxmaq, dağlara dırmaşmaq, xüsusilə Şuşa əməliyyatı tarixdə bəlkə də misli görünməmiş qəhrəmanlıq nümunəsidir. Bunu ancaq milli ruhda böyüyən insanlar edə bilərdilər. Sizin kimi valideynlər onları milli ruhda böyüdüb Vətənə bəxş etdiniz. Onlar da öz həyatlarını Vətənə bəxş etdilər. Mən sizi ürəkdən təbrik edirəm, təşəkkürümü bildirirəm və qucaqlayıram, bağrıma basıram”.** Azərbaycan Respublikası Prezidenti, müzəffər Ali Baş komandan İlham Əliyevin Vətən Müharibəsi Qəhrəmanı şəhid Surxay Noçuyevin atası Əbdül Noçuyev ilə söhbətində bu dedikləri və etdikləri, planlaşdırdığı işlər hər bir Azərbaycan sevdalısının həyat amalı olmalıdır.

**QAZİLƏRİMİZ** haqqında da çox yazmaq olar. Lakin ən azı üç hadisə onların tarixdə daimi yad olunacaqlarına zəmanət verir.

davamı səh. 9

# ŞUŞAMIZI – LƏYAQƏTİMİZİ VƏ BƏXTƏVƏRLİYİMİZİ BİZƏ QAYTARANLAR

əvvəli səh. 8

**Birincisi**, qazilərimizin vətənpərvərliyi, cəsurluğu sayəsində Şuşamızın azad olunması tarixdə analoqu olmayan döyüş planı kimi güclü orduya malik olan dövlətlər tərəfindən öyrənilir. **İkincisi**, azərbaycanlılar üçün müqəddəs olan 44 günlük Vətən Müharibəsi zamanı döyüşməkdən imtina edərək Ermənistan ordusundan qaçan 10 mindən artıq erməni fərarisindən fərqli olaraq, Azərbaycan ordusunda bir nəfər də fərari olmadı. **Üçüncüsü**, ermənilər döyüşə zorla göndərildikləri halda, Azərbaycan ordusuna yazılmaq və döyüşmək istəyən könüllülərin sayı həddən artıq çox idi. Dövlətimiz də qazilərimizin bu fədakarlığını layiqincə qiymətləndirir. Belə ki, cənab Prezidentin bilavasitə göstərişi ilə Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi uğrunda yaralananların və şəhid olanların ailələrinin təminatına dəstək fondu (YAŞAT Fondu) yaradılıb. Bu ilin noyabr ayının 22-də YAŞAT Fondunun dərc etdiyi ötən ayın hesabatında qeyd olunur ki, Fonda toplanan vəsaitin məbləği artıb. İndiyədək Fonda 64 611 281,3 manat yığılıb. Beləliklə, ötən ayın müvafiq dövrü ilə müqayisədə yığılan vəsaitin həcmində 1 028 093,13 manat artım olub. Qeyd edək ki, bu Fonda yüksək məbləğdə ilk ianə edən Prezident İlham Əliyev olub. Azərbaycanı sevən dost və qardaş ölkələrin nümayəndələri də bu Fonda mütəmadi ianələr edirlər. ŞƏHİDLƏRİMİZİ, YARALANMIŞ QAZİLƏRİMİZİ, ƏSGƏR VƏ ZABİTLƏRİMİZİ bu xalq – AZƏRBAYCAN XALQI böyüdüb. Bu xalqın təqaüdçüsü təqaüdünü, həkimi, müəllimi və s. peşə sahibləri könüllü olaraq əmək haqlarının müəyyən qismini müharibədən sonra yaradılmış fondlara köçürüblər.

AZƏRBAYCAN XALQI BÖYÜK XALQDIR. Şükürlər olsun ki, bu ölkənin Türkiyə, Pakistan və s. kimi dostları var. Bu dövlətlərlə dostluq və qardaşlıq əlaqələrimizin möhkəmləndirilməsində dövlət başçımızın böyük və müstəsna rolu var.

Ulu Öndər Heydər Əliyev 2003-cü ilin sonlarında Azərbaycan xalqına müraciət edərək demişdi: **"Mənim başa çatdıra bilmədiyim bütün işləri İlham Əliyev başa çatdıracaq"**. Ümummilli Liderin dediyi işlərdən, bəlkə də, ən vacibini - Azərbaycan xalqının taleyüklü işi olan Qarabağın işğaldan azad olunmasını düz 17 il sonra Prezident, Müzəffər Ali Baş komandan İlham Əliyev yerinə yetirdi. Dövlət başçımız cəsur və ağıllı sərkərdə kimi Ermənistanın dəfələrlə təkrarlanan atəşkəsi pozmasından sonra ən optimal vaxtda – 27 sentyabr 2020-ci il tarixində torpaqlarımızı işğaldan azad etmək üçün müzəffər Azərbaycan ordusuna əks-hücum əmrini verdi. Ermənilərin, erməni muzdlularının, Ermənistana hərtərəfli dəstək verən ermənipərəst dövlətlərin səyləri nəticəsində bir neçə il ərzində işğal etdikləri torpaqlarımızı şanlı Azərbaycan ordusu cəmi 44 günə işğaldan azad etdi.

Ölkəni iqtisadi, hərbi və mənəvi cəhətdən indiki səviyyəyə çatdırmaq üçün Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ali Baş komandan İlham Əliyev illərlə yorulmadan, səbirlə, dərin təhlillərə əsaslanan strateji plan üzərində işlədi və onu qələbə ilə yekunlaşdırdı. Bu fəaliyyətləri, fikrimcə, belə sistemləşdirmək olar:

**1. Vətənpərvər olmaq və vətənpərvər nəsil yetişdirmək.** Prezident İlham Əliyev öz əməlləri ilə bütün Azərbaycan xalqına, xüsusi ilə də gənclərə nümunə olacaq böyük bir vətənpərvərdir. Belə ki, o gənc yaşlarından – 33 yaşından Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin əvvəlcə Vitse-prezidenti, sonra isə Birinci vitse-prezidenti vəzifələrində işləyərkən Azərbaycan iqtisadiyyatının inkişafını şərtləndirən, əsası Ulu Öndər Heydər Əliyevin tərəfindən qoyulan neft strategiyasının həyata keçirilməsində yorulmadan, əsl vətənpərvər kimi çalışıb. Azərbaycan Respublikasının Milli Məclisinin 2 çağırış üzvü kimi də ölkəmizin inkişafı və son nəticədə azərbaycanlıların firavan yaşamasına təkan verən qanunların qəbul olunmasında fəal iştirak edib. Azərbaycan Milli Olimpiya Komitəsinə bugünədək davam edən 24 illik prezidentliyi dövründə idmançılarımızın və idmanımızın inkişafı, dünyada tanınması üçün yenə də yorulmadan fəaliyyət göstərir. Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Milli Məclisinin nümayəndə heyətinin rəhbəri kimi dövlətimizi layiqincə təmsil edib, mühüm qərarların qəbul olunmasında, ölkəmizin haqq işinin avropalılara layiqincə çatdırılmasında qətiyyətlə çalışıb. Onun 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikası Prezidenti seçilməsindən sonra ölkəmizin dünya çapında mövqeyi daha da möhkəmlənib. Dövlət başçımızın bu fəaliyyətini o dövrdəki gənc nəsil də görüb və bugünkü gənclər də görür. Nəticədə Müqəddəs Vətən Müharibəsində döyüşən, yaralanan, şəhid olan vətənpərvər hərbçilərimizin böyük əksəriyyəti Müzəffər Ali Baş komandan İlham Əliyevin prezidentliyi dövründə yetişib.

**2. İqtisadi güc.** Azərbaycan Prezidenti, Müzəffər Ali Baş komandan İlham Əliyev xalqa 8 noyabr 2020-ci il tarixli müraciətində iqtisadi gücümüzün qələbədəki payından danışarkən demişdi: "Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin olunmalı idi və təmin olundu. ...Müstəqillik bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda, Ordumuzu gücləndirək. Biz Ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazardan alırıq". Faktlar da göstərir ki, dövlət başçımızın rəhbərliyi ilə iqtisadiyyatımız sürətlə inkişaf edib. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Azərbaycan iqtisadiyyatına 280 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb ki, bunun da yarısı xarici sərmayədir. Bizim strateji valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 6 dəfə çoxdur. Azərbaycanın xarici borcu ölkənin ümumi daxili məhsulunun, sadəcə, 17,3 faizini təşkil edir. Ötən 18 il ərzində Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizdən 6 faizə enib. Budur Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ali Baş komandan İlham Əliyev yaratdığı, çoxsaylı ölkələrin həsəd aparacağı iqtisadi güc.



QARABAĞ AZƏRBAYCANDIR!

**3. Yüksək idarəçilik qabiliyyəti.** Dərin mənalı atalar sözlərimizdən biri də "Tək əldən səs çıxmaz"dır. Lakin digər əl iflic vəziyyətdədirsə, yenə də səs çıxmayacaq. Əcdadlarımızdan üzr istəyərək bu atalar misalına bu əlavəni edək: "Səs çıxması üçün digər əl də normal işləməlidir". Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ali Baş komandan İlham Əliyev vətənpərvər və işgüzar şəxslərdən ibarət komanda yaratdı. 44 günlük Müqəddəs Vətən müharibəsinin nəticələri həm də onun yüksək idarəçilik qabiliyyətinin göstəricisi idi.

**4. Diplomatik siyasəti.** Ermənilərin Qarabağın əksər hissəsinin işğalına, təbiətinin talan olunmasına, həmin işğal zonalarından azərbaycanlıların etnik təmizlənməsinə, işgəncələrlə öldürülməsinə, şikəst edilməsinə, evlərinin, məscidlərin, məktəblərin və s. tikililərin tamamilə dağıdılmasına göz yuman, bəzən də bu işğalı dəstəkləyən və erməni diasporu çox güclü olan bir sıra dövlətləri Prezident, Müzəffər Ali Baş komandan İlham Əliyev düşünülmüş xarici siyasəti və haqq işimizə inandırma yolu ilə neytrallaşdırdı, bəzilərini isə Azərbaycana dost dövlətlərə çevirdi. 44 günlük Müqəddəs Vətən Müharibəsi zamanı Azərbaycana qarşı böyük qarayaxma kampaniyası başladı. Həmin vaxt Prezident, Müzəffər Ali Baş komandan İlham Əliyev 30-a yaxın xarici kütləvi informasiya vasitələrinə müsahibə verdi. Bu müsahibələrində torpaqları işğal olunan və əhalisi etnik təmizləməyə məruz qalan Azərbaycanın haqlı mövqeyini, ermənilərin "yeni müharibə - yeni torpaqlar" kimi avantüralarını və provakasiyalarını dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Nəticədə məhz bu müsahibələr Azərbaycanın döyüş cəbhəsində olduğu kimi, informasiya cəbhəsində də qələbəsini təmin etdi.

**5. Dəmir yumruq.** 44 günlük müqəddəs Vətən müharibəsində 5 şəhər, 4 qəsəbə, 286 kənd işğaldan azad olundu. Hazırda da Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ali Baş komandan İlham Əliyevin "Dəmir yumruğu" havadadır və istənilən anda Azərbaycan Respublikasının ərazi bütövlüyünə və vətəndaşlarına qəsd etmək istəyən hər bir terrorçunun təpəsinə endiriləcək. Prezident İlham Əliyev yumruğu təkcə güc vasitəsi kimi yox, həm də birlik rəmzi kimi də dəyərləndirir.

Bu qeyd olunanlardan sonra belə bir sual yarana bilər: Prezident İlham Əliyev fenomenin, sirrinin səbəbi nədir? Hansı özəllikləri onu müasir dünyanın aparıcı siyasətçilərinin ilk onluğuna daxil etmişdir? Öz həyat təcrübəmə, müşahidələrimə əsaslanaraq mən belə cavab verərdim:

*1) Prezident İlham Əliyevin irsiyyəti, genetikasıdır.* O, atası Heydər Əliyev və anası Zərifə Əliyevanın sahib olduğu mükəmməl genlərin daşıyıcısıdır.

*2) Prezident İlham Əliyevin böyüdüyü və formalaşdığı mühitdir.* Bu mühit Ulu Öndər Heydər Əliyevin və böyük ziyalı, akademik Zərifə xanım Əliyevanın ailəsidir.

*3) Prezident İlham Əliyevin aldığı təhsil.* İlham Əliyev ilk təhsilini Bakı şəhərinin mükəmməl təhsil verən 6 saylı orta məktəbində, ali təhsilini dünyada sayılıb-seçilən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda alıb. Nəticədə tarix, siyasət, iqtisadiyyat və s. sahələr üzrə yüksək savad almaqla yanaşı, ana dilindən başqa, rus, ingilis, fransız və türk dillərinə mükəmməl yiyələnib. 1985-ci ildə tarix elmləri namizədi elmi dərəcəsi alıb.

*4) Prezident İlham Əliyevin iş sahələri.* Bu iş sahələrini cənab İlham Əliyev Prezident seçilənə kimi xronoloji qaydada düzsək belə olur: özəl biznes sahəsində çalışma və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik; Dövlət Neft Şirkətində, Milli Olimpiya Komitəsində, Milli Məclisdə, AŞPA-da rəhbər vəzifələrdə işləməsi; Azərbaycan Respublikasının Baş naziri. Bu sahələrin hər birində işləmək ayrılıqda geniş dünyagörüşü, yüksək səviyyəli təhsil, çalışmaqdan "qorxmamaq" və s. bu kimi keyfiyyətlər tələb edirdi. Prezident İlham Əliyevdə də bu keyfiyyətlərini sadalanan vəzifələrin siyasi, iqtisadi, təcili və düzgün qərar vermək və s. özəllikləri ilə birləşdirərək çox böyük həyat və iş təcrübəsi qazandı və bu təcrübəni Azərbaycan Respublikası Prezidenti, Ali Baş komandan kimi fəaliyyətində yüksək səviyyədə tətbiq etdi.

**Son söz əvəzi.** Allah Şuşamıza, Qarabağımıza, Azərbaycanımıza və bütün Azərbaycan vətəndaşlarına, Azərbaycanı sevən digər ölkələrə və vətəndaşlarına, haqq iş uğrunda çalışanlara daimi əmin-amanlıq versin! Allahdan şəhidlərimizə rəhmət, yaralanmış qazilərimizə, əsgər və zabitlərimizə möhkəm cansağlığı arzu edirəm!

Azərbaycan Respublikası Prezidenti, Müzəffər Ali Baş komandan İlham Əliyevin 60 yaşı mübarək olsun. Əzizləri ilə birlikdə sağlam, bəxtəvər və uzun ömür yaşamalarını arzu edirəm!

**Elçin BİLALOĞLU,**
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
Milli Onkologiya Mərkəzinin həkimi

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2019

## BİSAU

Qvineya-Bisau şimaldan Seneqal, cənub-şərqdən Qvineya, qərbdən isə Atlantik Okeanla həmsərhəd olan Qərbi Afrika ölkəsidir. Qvineya-Bisau Respublikasının ərazisi 36,125 km², əhalisi isə təxminən 2 milyon nəfərə çatır.



Ölkənin əhalisi etnik cəhətdən müxtəlifdir və bir çox fərqli dillərə, adətlərə və sosial quruluşa malikdir. Qvineya-bisaualıların ən böyük hissəsini şimal və şimal-şərqdə cəmləşən fula və mandinqo xalqları təşkil edir. Cənub sahil bölgələrində balanta və papel xalqları, mərkəzi və şimal sahil ərazilərində isə manjaco və mancanha etnik qrupları yaşayır. Qalan əksəriyyət isə Kabo-Verdedən olan azlıqlar, Portuqaliya və Afrika mənşəli mestiçolardır.

Qvineya-Bisaunun rəsmi dili portuqal dilidir. Əhalinin 14%-i bu dildə danışır. 44%-i portuqal əsaslı kreol dilində, qalanları isə doğma Afrika dillərindən istifadə edir. Ölkə fransızdilli ölkələrlə əhatə olunduğundan fransız dili məktəblərdə tədris edilir.

Əhalinin təxminən 50%-i İslam dininə (sünni qoluna), 10%-i isə Xristianlığa, təxminən 40%-i yerli dinlərə etiqad edir. Əhalinin bir qismi İslam və xristian inanclarını ənənəvi inanclarla birləşdirir.

Qvineya-Bisau XVI əsrdə Mali imperiyasının tərkibində olan Kaabu krallığının bir hissəsi olub. Portuqaliyalılar bu ərazilərə XV əsrin ortalarında gəlsələr də, Qvineya-Bisau 1879-cu ildə Portuqaliya imperiyasının koloniyasına çevrilib. Ölkə 1973-cü ildə müstəqilliyini elan edib və 1974-cü ildə müstəqilliyi tanınıb. Adının Qvineya dövlətinin adı ilə səhv salınmaması üçün qarşısına paytaxtının adı - "Bisau" əlavə edilib.

Qvineya-Bisauda adambaşına düşən ÜDM dünyada ən aşağı göstəricilərdən biridir. Əhalinin üçdəikisindən çoxunun gəliri yoxsulluq səviyyəsindən də azdır. İqtisadiyyat əsasən kənd təsərrüfatından asılıdır; balıq, anakardiya və qoz-fındıq onun əsas ixracatıdır.

Ölkənin paytaxtı Bisau şəhəri Geba çayının mənsəbində, Atlantik okeanının kənarında yerləşir. O, Qvineya-Bisaunun ən böyük və əsas liman şəhəridir. Bisau 1687-ci ildə Portuqaliya tərəfindən liman və ticarət mərkəzi kimi salınmışdır. 1942-ci ildə Portuqaliya Qvineyasının paytaxtı Bolamadan Bisauya köçürülmüşdür.

Hazırda Bisauda təxminən 600 min adam yaşayır. Ölkənin administrativ binaları, əsas təhsil ocaqları və ən böyük dini ibadət yerləri bu şəhərdə yerləşir.

İbadət yerləri arasında məscidlər üstünlük təşkil edir. Onların arasında ən məşhuru Bisau Mərkəzi məscididir. Ona Attadamun məscidi də deyilir (ərəbcədən tərcümədə "həmrəylik" deməkdir). Ölkənin ən böyük məscidi olan Attadamun Bisau şəhərinin Ajuda məhəlləsində yerləşir. Məscidin daxilində mədrəsə, yanında isə böyük təhsil kompleksi fəaliyyət göstərir. Onun tikintisinə 15 noyabr 1989-cu ildə başlansa da, 2000-ci ildə tamamlanıb. Məscidin inşasına 1.1 milyon dollar ayrılıb. Bundan başqa, şəhərdə Mədinə, Bisau, Sarakul, Qa-qot, Kubelum və s. kiçik məscidlər də fəaliyyət göstərir. Şəhərdə katolik və yevangelist kilsələri də mövcuddur.

Bisau şəhəri 2019-cu ildə İslam mədəniyyətinin paytaxtı seçilib.

## ABŞ ƏHALİSİNİN 43%-İ XRİSTİAN İNANCINI "ƏSL AMERİKALILARIN" DƏYƏRLƏRİNDƏN BİRİ HESAB EDİR



Yeni sosioloji araşdırmaya əsasən, ABŞ sakinlərinin 43%-i xristian inancını "əsl amerikalıların" əsas dəyərlərindən biri hesab edir. Üstəlik, demokratlar və respublikaçılar onun töhfəsini fərqli qiymətləndirirlər. Bu barədə "Christianheadlines" məlumat verib.

Araşdırma İctimai Dinlərin Tədqiqat İnstitutu (PRRI) tərəfindən aparılıb, onun nəticələri isə "Amerikadakı rəqib baxışlar: inkişaf edən kimlik, yoxsa hücuma məruz qalan mədəniyyət?" adlı hesabatda dərc olunub.

Respondentlərdən "əsl amerikalıya" xas olan müəyyən xarakterik xüsusiyyətləri seçmələri istənilib. Sorğunun 43 faizi xristian inancını "əsl amerikalının" ən vacib xüsusiyyətlərindən biri kimi göstərib, halbuki 2015-ci ildə bu göstərici daha çox olub - 53 faiz.

Dini konfessiyalara görə, imanın rolu ilə bağlı fikirlər aşağıdakı kimi paylanıb. Əsl amerikalı obrazında xristian inancının üstünlüyünə əmin olanların ən böyük hissəsini yevangelistlər (76%) təşkil edib. Onların ardınca latın amerikalı katoliklər (52%), protestantlar (qeyri-incil 49%), katoliklər (46%) və digər məzhəblərdən olan xristianlar (46%) gəlir.

PRRI araşdırması həmçinin müəyyən edib ki, Birləşmiş Ştatlarda yaşayan amerikalıların 95 faizi əsl amerikalı kimi şəxsi azadlıqlara, xüsusilə, söz azadlığına sadiqliyi vurğulayır. Bunun ardınca hər bir vətəndaşın seçkilərdə səsvermə hüququna malik olması (93%) və digər dinlərə və irqlərə qarşı dözümlü yanaşması (92%) gəlir.

Amerikalıların Tanrının Amerikaya "bəşəriyyət tarixində xüsusi rol" bəxş etdiyinə dair inamı 2013-cü ilin məlumatları ilə müqayisədə bu gün nəzərəçarpacaq dərəcədə azalıb. Baxmayaraq ki, bu inam ümumi kütlədə yüksək olaraq qalır. 2013-cü ildə bu düşüncədə olanlar demək olar ki, əhalinin üçdə ikisini (64%) təşkil edirdi. Bu gün isə özlərinin ilahi seçilmişliyinə dair inancı 44%-ə qədər azalıb.

## VYANADA "MÜSƏLMAN = MÜASİR" FESTİVALI KEÇİRİLİB

"religion.orf.at"ın verdiyi xəbərə görə, noyabrın 8-dən 12-dək Avstriyanın paytaxtı Vyanada "Müsəlman = Müasir" adlı incəsənət festivalı keçirilib. Festivalda müasir İslam rəssamları teatr tamaşaları, master-klass və sərgilər vasitəsilə gündəlik reallıqlarını bölüşüblər.




Festivalın təşkilatçısı Əsma Ayad bildirib ki, o, Qərb mediasının Avropa cəmiyyətində müsəlmanların həyatından xəbər verərkən dərc etdiyi görüntülərə etiraz əlaməti olaraq fotoqrafiğa başlayıb: bir qayda olaraq, fotolarda tam qara geyinmiş, hicablı, çox vaxt kədərli gözləri olan qadınların təsviri verilir.

Əsma Avstriyanın ən böyük xəbər agentliklərinin redaksiyalarına yazaraq müsəlman qadının stereotip obrazını tənqid edib. O, stereotiplərdən tamamilə fərqli görünüşə malik müsəlmanların şəkillərini çəkməyə başlayıb. Bundan əlavə, Ayad dinindən asılı olmayaraq bir çox insanın məhz xarici görünüşünə görə başqaları tərəfindən müsəlman kimi qəbul edilməsini dəstəkləmir.

"Müsəlman = Müasir" festivalının əsas məqsədi də müsəlman rəssamlara gündəlik reallıqlarını təsvir edə və ziyarətçilərə özləri haqqında danışa biləcəkləri bir məkan təqdim etmək idi. İlk dəfə bu səpkidə baş tutan incəsənət festivalının hər il keçirilməsi planlaşdırılır.

Festivalda Qothold Efraim Lessinqin "Müdrik Natan" dram əsəri "Ein Stück" teatr assosiasiyası tərəfindən müasir quruluşda təqdim olunub. Əsərdəki hadisələr Üçüncü Səlib yürüşü zamanı baş verir. Həmçinin islamofobiya və irqçiliklə mübarizə mövzusunda bir çox seminarlar təşkil olunub. Festival çərçivəsində politoloq və şair Ozon Zəkəriyyənin kitabının təqdimatı, EsRAP duetinin konserti və müsəlman rəssamların rəsm sərgisi də baş tutub.

Festivalda iştirak edən rəssamlar tədbirin proqramı qədər müxtəlifdir. Onların hər birinin öz həyat tarixçəsi var, hər biri katoliklərin üstünlük təşkil etdiyi Avstriya cəmiyyətində müsəlman olmağın onlar üçün nə demək olduğunu özünəməxsus şəkildə müəyyən edir. Lakin onları xristian avropalıların onlarla birlikdə yaşayan müsəlmanlar haqqında stereotip baxışlarını məhv etmək istəyi birləşdirir.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyanın diqqətini bir daha öz üzərinə çəkdi. Əminliklə demək olar ki, bu məğrurluğun əsasında xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevrilməklə göstərməsi, dolayısı ilə "mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır" deyə bilməsi durur.*

*İşğalda olan torpaqlarımızı azad etmək üçün böyük həsrətlə gözləyən xalqımızın növbəti erməni təcavüzünə qarşı göstərdiyi əsrarəngiz reaksiya – Vətənin müdafiəsi və ərazi bütövlüyünün bərpası naminə bir yumruq kimi birləşməsi həm də uzun illər ona edilən haqsızlığa qarşı döyüş ruhunun təcəssümü idi. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq şanlı tarix yazdılar. Ümumiyyətlə, torpağı Vətənə çevirən, onu müqəddəsləşdirən, özlərini bu yolda fəda edənlər - şəhidlərdir. Bu səbəbdən onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzeti 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.*

## Abbasov Nurhan Əlastan oğlu

Şəhid Abbasov Nurhan Əlastan oğlu 1991-ci il iyunun 17-də Gəncə şəhərində dünyaya gəlib. O, 1997-ci ildə Gəncə şəhər 29 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub, 2008-ci ildə həmin məktəbi bitirib. Nurhan 2009-cu ildə Gəncə şəhər Kəpəz rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət edib. Rəşadəti, ayıq-sayıqlığı ilə seçilən Nurhan xidməti ərzində tədris olunan taktiki hazırlıq dərslərinə həvəslə yanaşıb yüksək bacarıq nümayiş etdirib verilən tapşırıqların öhdəsindən uğurla gəlib. Nümunəvi əsgər kimi daim yuxarı komandanlığın diqqət mərkəzində olub müxtəlif həvəsləndirici təltiflərə layiq görülüb. Qəhrəmanımız tərxis olunduqdan sonra müxtəlif sahələrdə fərdi işlə məşğul olub.

2020-ci ilin 12 iyulunda düşmənin təxribatı nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahə-



sində gedən şiddətli döyüşlər bir çoxu kimi Nurhanın da həyatının dönüş nöqtəsi olub. Milli Qəhrəman general-mayor Polad Həşimovun şəhadətindən sonra o, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə (SHXÇDX) müraciət edib və müvafiq formada qeydiyyata alınıb.

2020-ci ilin sentyabrın 21-də SHXÇDX tərəfindən ehtiyatda olan hərbi vəzifəlilərin müxtəlif ixtisaslar üzrə təlim toplanışlarına çağırılması həyata keçirilərkən Nurhan da SHXÇDX-nın Gəncə şöbəsi tərəfindən təlimlərə çağırılıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayan ilk gündən Cəbrayıl istiqamətində döyüşlərə qoşulub.

Cəbrayıl rayonu ərazisində döyüşlərdə iştirak edən Nurhan dəfələrlə yaralı döyüş yoldaşlarını xilas edib. Qəhrəmanımız Xocavənd və Şuşa istiqamətində gedən döyüşlərdə də iştirak edib. O, Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə xüsusi qəhrəmanlıqlar göstərib. Noyabrın 8-də Xankəndi istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Nurhan noyabrın 11-də Gəncə Şəhidlər Xiyabanında uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılmışdır.

Şəhidimiz subay idi.

Vətən müharibəsində cəsarət göstərək adını zəfər tariximizə yazan əsgər Abbasov Nurhan Əlastan oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunması uğrunda" medalları ilə təltif edilib.

## Abbasov Samir Azər oğlu

Şəhid Abbasov Samir Azər oğlu 1997-ci il iyunun 10-da Neftçala rayonunun Xolqaraqaşlı kəndində anadan olub. O, 2003-cü ildə Qismət Nuriyev adına Xolqaraqaşlı kənd tam orta məktəbin 1-ci sinfinə gedib, 2014-cü ildə həmin məktəbin 11-ci sinfini bitirib. Samir 2015-ci ilin iyulunda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Neftçala rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. O, Əlahiddə Ümumqoşun ordusunun Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissəsinin kəşfiyyat bölüyündə hərbi xidmətdə olub. Hərbi qulluqda olduğu müddətdə özünü nizam-intizamlı, vəzifə borclarına layiqincə yanaşan, üzərində məsuliyyəti dərindən dərk edən bir əsgər kimi göstərib. Samir 2017-ci il yanvar ayında hərbi xidmətini uğurla başa vurub.



Samir 2018-ci ildə İctimai İaşə və Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin Aşpazlıq ixtisasına qəbul olub. 2019-cu ildə təhsilini başa vuran qəhrəmanımız aşpaz kimi çalışıb.

2020-ci ilin sentyabrın 21-də Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ehtiyatda olan hərbi vəzifəlilərin müxtəlif ixtisaslar üzrə təlim toplanışlarına çağırılması həyat keçirilərkən SHXÇDX Neftçala rayon şöbəsi tərəfindən Samir də təlimlərə çağırılıb. O, Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəyə aparılıb və oradan da Beyləqana "N" saylı motoatıcı hərbi hissəyə göndərilib. Bir neçə gün təlimlərdə iştirak etdikdən sonra isə 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayan ilk gündən Füzuli istiqamətindən döyüşlərə qoşulub. Hərbi ixtisası topçu olan qəhrəmanımız həlledici döyüşlərdə yüksək əzmkarlıq və cəsarət göstərib.

O, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın və Şuşa istiqamətində gedən döyüşlərin iştirakçısı olub. Son dəfə qardaşıyla telefon əlaqəsi saxlayan cəsur topçumuz deyib: "Kəndə qazi olaraq gələcəyəm və işlərimi tamamlayandan sonra, qismət olsa, ailəmlə birlikdə Şuşaya istirahətə gedəcəyəm". Təəssüf ki, Samirin bu arzusu baş tutmadı və o, elə noyabrın 7-də Şuşa istiqamətində gedən döyüşlərdə yaxınlığına düşən top mərmisindən aldığı qəlpə yarasından şəhadətə yüksəlib. Noyabrın 23-də doğulduğu Xolqaraqaşlı kəndində uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Şəhidimiz subay idi.

İgidliyi və cəsurluğu ilə fərqlənən əsgər Abbasov Samir Azər oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasna görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

## Abbasov Vüsal Telman oğlu

Şəhid Abbasov Vüsal Telman oğlu 1983-cü il avqust ayının 12-də Beyləqan rayonunun Təzəkənd kəndində doğulub. O, 1989-cu ildə birinci sinfə gedib, 2000-ci ildə Əliheydər Məmmədov adına Təzəkənd kənd tam orta məktəbinin məzunu olub. Məktəbi bitirdikdən sonra başqa gənclər kimi bir müddət ata-anasına köməklik edib. Müddətli hərbi xidmət vaxtı çatanda isə 2001-ci ildə Beyləqan rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. O, Xızı rayonunda yerləşən "N" saylı hərbi hissədə topçu kimi xidmət edib. 2003-cü ildə hərbi xidmətini başa vuran Vüsal bir müddət müəyyən işlərdə çalışsa da, yenidən hərbi xidmətə qayıdıb. Sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verib. Kursu uğurla bitirərək Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayıb. Piyadanın Döyüş Maşınında (PDM-2) sürücü-mexanik olan Vüsal 2016-cı il aprel ayında Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində-Lələtəpə istiqamətində gedən döyüşlərdə iştirak edib.



Vətən müharibəsində döyüş yolu Füzuli bölgəsindən başlayan qəhrəmanımız "PDM-2" ilə ona verilən tapşırıqların öhdəsindən ləyaqətlə gəlib. Yüksək idarəçilik qabiliyyətinə malik Vüsal düşmənin illərdir hazırladığı istehkamları keçib sürətlə irəliləyib düşmən tapdağında olan ərazilərimizin işğaldan azad olunmasında xüsusi fədakarlığı ilə seçilib.

Döyüşlərin üçüncü günündə sentyabrın 29-da səhər saat 10:00 radələrində ailəsi ilə əlaqə saxlayaraq: "Hər şey yaxşıdır, arxayın olun, uşaqlardan muğayat olun, irəli gedirik" - deyib. Növbəti gün ikinci eşalonun yarılmasından sonra toplanma məntəqəsinə sursat götürməyə gələn Vüsal günorta saat 14:00 radələrində yaxınlığına düşən minaatan mərmisindən qəlpə yarası alaraq şəhid olub. O, doğulub boya-başa çatdığı Təzəkənddə uğrunda canını fəda etdiyi müqəddəs Vətən torpağına tapşırılıb.

Vüsal ailəlidir: Ümid və Cərcis adlı əkiz oğlu var.

İgidliyi ilə adını tariximizin şanlı səhifəsinə yazan əsgər Abbasov Vüsal Telman oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasna görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

Hazırladı: **Ramil Hikmət**

İtaliyalı şair, italyan ədəbi dilinin banisi Dante Aligyeri özünün məşhur "İlahi komediya"sında oxucunu cənnət və cəhənnəmdən, məhşərdən keçirir. İndi isə katoliklərə onun dünyəvi səyahətinin izi ilə getmək imkanı verilir. Belə ki, İtaliyada şairin vəfatının 700-cü ildönümü ilə əlaqədar "Dantenin yolu" ziyarəti təşkil olunub.

Marşrut xətti İtaliyanın şimalında Bizans əzəmətini daşıyan Ravennadan başlayaraq İntibah dövrünün ruhunu yaşadan cənubi Florensiyaya qədər uzanır. Ravennadan Florensiyaya və geriyə 20 keçiddən ibarət olan bu yolun ümumi uzunluğu 380 km-dir. Marçello Bezzi, Silvia Rossetti və Massimiliano Venturelli tərəfindən hazırlanmış bələdçi kitabçasında ziyarət yolunun 20 mərhələsi ətraflı təsvir edilmişdir.

Ziyarətə Dantenin Ravennadakı məzarı ilə başlanılır. Daha sonra zəvvarlar Lombardiya əyalətinin Ponteviko şəhərində olan növbəti dayanacağa qədər piyada, velosiped və ya atla gedə bilərlər. Buradan "Dantenin yolu" orta əsr kəndləri və qalaları ilə dolu bir kənddən keçərək zəvvarları şairin 1265-ci ildə doğulduğu Florensiyadakı Ev Muzeyinə aparır. Ev Dantenin Beatriça Portinari ilə ilk dəfə tanış olduğu Santa-Marqarita-de-Çerki kilsəsinin yaxınlığında yerləşir. Beatriça şairi 1294-cü ildə "Yeni həyat" (La Vita Nuova) əsəri üzərində işləməyə ruhlandırmış muza kimi məşhurlaşıb. Florensiyadan zəvvarlar bir az fərqli yolla Ravennaya qayıdırlar.

Gənclik, formalaşma, siyasi və yaradıcılıq həyatı, həmçinin ölüm yeri olması baxımından Ravenna və Florensiya Dantenin həyatında iki simvolik şəhərdir. Bu iki şəhər şairin ruhunu özündə saxlayır. "Əsrlər boyu dəyişməz qalmış bəzi qədim yerlərdə və xiyabanlarda biz bu qədim ruhu hələ də hiss edə bilirik. Zəvvarlar




üçün marşrutu məhz bu iki simvolik şəhər arasında çəkdik ki, onlar Dante Aligyerinin həyatının keçdiyi və formalaşdığı yerləri görə və hiss edə bilsinlər". Bu sözləri Massimiliano Venturelli söyləyib.

Dante ilinin açılışı 2020-ci ildə Ravennada prezident Sercio Mattarellanın iştirakı ilə baş tutmuşdu və bu günə kimi bütün İtaliyada, həmçinin onun hüdudlarından kənarda müxtəlif tədbirlərlə geniş şəkildə qeyd olunur.

